DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 9 (314) / SENTYABR 2017-Cİ İL




Azərbaycanda dünya, Avropa çempionatları keçirilir. Əlbəttə ki, mən 2015-ci ildə keçirilmiş birinci Avropa Oyunlarını xüsusi qeyd etməliyəm. Bu qərarı qəbul edən Avropa Olimpiya Komitələrinin rəhbərlərinə və üzvlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. O vaxt bu qərarın qəbul edilməsi bizə imkan verdi ki, bu Oyunları keçirək, öz imkanlarımızı göstərək və beləliklə, Avropa Oyunlarına start verək. Bilirsiniz ki, hazırlıq üçün bizim cəmi 2 il yarım vaxtımız var idi və deyə bilərəm ki, bu Oyunlar qısa müddət ərzində Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Bakıda bu Oyunlarda 50 ölkə, 5 mindən çox idmançı, nümayəndə heyətlərinin minlərlə üzvü, qonaqlar iştirak ediblər. Onu da qeyd etməliyəm ki, Azərbaycan bu Oyunlarda çox yaxşı nəticələr göstərmişdir, komanda hesabında idmançılarımız ikinci yerə layiq görülmüşlər. Bu Oyunlar bizim hamımızın xatirindədir, bu, gözəl bir idman və dostluq bayramı idi. O günlərdə yaşanan ab-hava əminəm ki, bundan sonra da bizim yaddaşımızdan silinməyəcək. Bu gözəl təcrübəni əldə edərək, Azərbaycan bu il IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirib. Bu Oyunlarda 54 ölkə, 3 mindən bir qədər çox idmançı iştirak etmişdir. Bu Oyunlarda da Azərbaycan idmançıları öz güclərini göstərərək bu dəfə komanda hesabında, 54 ölkə arasında birinci yeri tuta bilmişlər. Bu Oyunlar da çox böyük müvəffəqiyyətlə keçdi. Həm Avropa Oyunlarında, həm də İslam Həmrəyliyi Oyunlarında iştirak etmiş idmançılar və qonaqlar əminəm ki, öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar.

Bu Oyunların keçirilməsi həm ölkəmizin potensialını, həm bizim siyasətimizi, həm də imkanlarımızı göstərir. Çünki bu Oyunlar sadəcə olaraq idman yarışları deyil. İdman dostluğu möhkəmləndirən, xalqlararası münasibətləri gücləndirən önəmli bir amildir. Bir şəhərdə cəmi iki il ərzində həm Avropa, həm İslam oyunlarının keçirilməsi bizim sivilizasiyalararası dialoqa da verdiyimiz növbəti töhfə kimi qəbul edilməlidir.

Siz bilirsiniz ki, Azərbaycan bu istiqamətdə dünya miqyasında çox böyük işlər görür. Azərbaycan bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi özünü təsdiqləyib. Biz keçən ili Azərbaycanda "Multikulturalizm İli" elan etmişdik. Bu il isə "İslam Həmrəyliyi İli"dir. Bu iki təşəbbüs arasında sıx bağlılıq var. Yəni, biz, bu təşəbbüslə göstəririk və bildiririk ki, dünyada bütün məsələlər qarşılıqlı anlaşma, əməkdaşlıq şəraitində öz həllini tapmalıdır. Məhz Azərbaycan 2008-ci ildə "Bakı prosesi"nə start verdi. Bu gün "Bakı prosesi" BMT tərəfindən dəstəklənən çox geniş bir hərəkatdır. Məhz 2008-ci ildə Azərbaycan Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etmişdi. Beləliklə, birinci dəfə hər iki təşkilat bir yerdə toplantı keçirmişdir. "Bakı prosesi" o gündən bu günə qədər çox böyük məsafə qət etmişdir və bu gün beynəlxalq aləmdə çox yüksək qiymətləndirilir.

Yəni, idman ictimai həyatın önəmli amili kimi, əlbəttə, bundan sonra da öz rolunu oynayacaq. Azərbaycan idman yarışlarını keçirərkən, əlbəttə, eyni zamanda, bu məqsədi də güdür ki, idmançılar arasında, xalqlar arasında, ölkələr arasında münasibətlər qarşılıqlı etimad və hörmət əsasında qurulsun.

*Azərbaycan Prezidenti İlham Əliyevin Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş mərasimdəki nitqindən Bakı, 29 sentyabr 2017-ci il.*

## AZƏRBAYCAN İSLAM HƏMRƏYLİYİNİN İDEYA VƏ REAL FƏALİYYƏT MƏRKƏZİNƏ ÇEVRİLİR

***Azərbaycan İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilməkdədir. Ölkəmizdə milli və dini tolerantlığın dövlət səviyyəsində dəstəklənməsi Azərbaycanı beynəlxalq aləmdə İslam həmrəyliyinin ən yaxşı nümunəsi kimi tanıdır.***



Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 29-da Xaçmaz şəhərində "İslam həmrəyliyi: Sülh və əməkdaşlığa çağırış" mövzusunda keçirilən konfransda söyləyib.

Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılan abidəsinin qarşısına gül dəstələri düzərək, xatirəsini ehtiramla anıblar.

DQİDK, Qafqaz Müsəlmanları İdarəsi, "Azərbaycan" qəzeti və Xaçmaz Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfransda hüquq mühafizə orqanlarının, dini işlər üzrə komissiyanın nümayəndələri, YAP Xaçmaz rayon təşkilatının əməkdaşları, bələdiyyə sədrləri, dini icma üzvləri, məktəb direktorları, ağsaqqallar və fəal gənclər iştirak ediblər.

Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlının mövzu ilə bağlı məruzəsi dinlənilib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini vurğulayan M.Qurbanlı Azərbaycanın İslam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanındığını bildirib. Komitə sədri İslam dininin xalqımızın mənəvi həyatını daha da zənginləşdirdiyini, onun həyat tərzini və birgəyaşayış normalarını müəyyən edən əsas amillərdən birinə çevrildiyini vurğulayıb.

Mübariz Qurbanlı qeyd edib ki, bu gün müsəlman dünyasında din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar tapmağa hər zamankından daha çox ehtiyac var. Bu yol isə dini tolerantlığın, birgəyaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Xaçmazın milli etnik zənginliyin, dini tolerantlığın təcəssümü olduğunu qeyd edib. Bildirib ki, rayonda fərqli dinlərə və mədəniyyətlərə aid insanlar mehriban və qarşılıqlı hörmət prinsipləri əsasında yaşayırlar. Bu da öz növbəsində, Xaçmazın timsalında İslam həmrəyliyinə böyük töhfədir.

Konfransda Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Eldəniz Səlimov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Salman Musayev, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Xaçmaz rayon Rus icmasının sədri Navi Azər mövzu ətrafında çıxış ediblər.

Bildirilib ki, Azərbaycanda mövcud olan məzhəblərarası səmərəli əməkdaşlıq və etimad mühiti İslam ölkələrinin həmrəyliyi üçün uğurlu nümunədir. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibət tamamilə dəyişib, ölkədə milli mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşılıb. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Konfransda qeyd olunub ki, regionlarda keçirilən bu kimi tədbirlər Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması, dini mühitdə radikallığa meyillərin qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılması, bu sahədəki kompleks tədbirlərin səmərəliliyinin daha da artırılması baxımından olduqca əhəmiyyətlidir.

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCANIN YƏHUDİ İCMASINI ROŞ-HA-ŞANA MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



**Azərbaycanın yəhudi icmasına**

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan bu gün multikultural ənənələrin qorunub saxlanıldığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin mövcud olduğu nadir məkanlardandır.

Tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icmasının cəmiyyətimizdə özünəməxsus yeri vardır. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaş mövqeyi nümayiş etdirirlər.

Əziz dostlar!

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bir bayramdır. Yəhudi xalqının bu əziz günü qoy hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 sentyabr 2017-ci il.

# "İSLAM HƏMRƏYLİYİ: TÜRKİYƏ-AZƏRBAYCAN DOSTLUĞU TİMSALINDA"




Sentyabrın 25-də İstanbul şəhərində "İslam həmrəyliyi: Türkiyə-Azərbaycan dostluğu timsalında" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə Azərbaycan, Türkiyə, Rusiya, Bolqarıstan və Monteneqrodan görkəmli ilahiyyatçı alimlər və rəsmi şəxslər İslam həmrəyliyi mövzusunda müzakirələrdə iştirak ediblər.

Konfrans Türkiyə Diyanət İşləri Başqanlığı, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Qafqaz Müsəlmanları İdarəsi (QMİ), İslam Əməkdaşlıq Təşkilatının İslam Tarix, İncəsənət və Mədəniyyət Tədqiqatları Mərkəzi (IRCICA) və Mərmərə Universiteti tərəfindən birgə təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən elan edilmiş "İslam Həmrəyliyi İli" çərçivəsində Bakıda, Rusiyada, Finlandiyada, İranda keçirilmiş beynəlxalq tədbirlərdən sonra İstanbulda təşkil olunan konfransda ölkəmizi Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları, elm və din xadimlərindən ibarət geniş nümayəndə heyəti təmsil edib.

Qurani-Kərimdən ayələr oxunduqdan sonra DQİDK-nın sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. Müraciətdə bildirilir ki, yarandığı dövrdən etibarən sülh, ədalət, bərabərlik kimi humanist ideyaları təbliğ edən İslam dini yayıldığı böyük coğrafiyada elmin, təhsilin və mədəniyyətin inkişafına təkan vermiş, dinindən, irqindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün insanların qarşılıqlı hörmət və dostluq mühitində yaşamalarına zəmin yaratmışdır. Əsrlər boyu dünya mədəniyyətinə və elminə misilsiz töhfələr vermiş müsəlmanlar, təəssüf ki, bu gün məzhəb ayrı-seçkiliyi, dini radikalizm, ekstremizm və terror kimi ciddi problemlərlə qarşılaşırlar. Dünyanın müxtəlif yerlərində baş verən terror hadisələrinin İslam adı altında pərdələnən, dinimizlə heç bir əlaqəsi olmayan qruplar tərəfindən həyata keçirilməsi İslama və müsəlmanlara qarşı böyük haqsızlıq və ədalətsizlikdir. Bu gün dünyada törədilən terror aktlarının qurbanlarının əksəriyyəti də məhz müsəlmanlardır.

Müraciətdə o da qeyd edilir ki, Şərqlə Qərbin qovuşuğunda yerləşən qədim Azərbaycanda müxtəlif dinlərin, ayrı-ayrı mədəniyyətlərin nümayəndələri tarix boyu sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Azərbaycan xalqı bu gün də özünün zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, İslam həmrəyliyinə öz töhfələrini verir. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bütün dünyada, xüsusilə İslam aləmində sülhə, dostluğa, qarşılıqlı hörmət və birgəyaşayışa mühüm çağırış və töhfədir. Tarixin sınaqlarından çıxmış, "Bir millət, iki dövlət" prinsipi ilə gündən-günə güclənən Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı İslam həmrəyliyinə layiqli nümunədir.

Sonra IRCICA-nın baş direktorunun müavini Sadik Ünay Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın konfrans iştirakçılarına müraciətini oxuyub. Türkiyə Prezidenti müraciətində Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsini və bu çərçivədə İstanbulda beynəlxalq konfrans təşkil olunmasını məmnunluqla qarşıladığını bildirilib. Qeyd edilib ki, Azərbaycan və Türkiyə öz qədim tarixlərindən və ortaq hədəflərindən aldıqları ilhamla mətinləşməyə nail ola biliblər. Müraciətdə İslam həmrəyliyi təşəbbüsünün bir çox məsələlərdə olduğu kimi, terrorizmə qarşı mübarizədə də böyük fayda verəcəyi diqqətə çatdırılıb.

Azərbaycanda dini etiqad azadlığının yüksək səviyyədə qorunduğunu bildirən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə qeyd edib ki, hazırda yaşanan böhranlara baxmayaraq, dünyamızı məhvərindən çıxmağa qoymayan əbədi mənəvi dəyərlər mövcuddur. Fərəhli haldır ki, Azərbaycan ümumbəşəri önəm kəsb edən ideyaların bütün dünya ictimaiyyətinə xitabən ucaldığı ənənəvi məkan statusunu qorumağa davam edir.

Şeyxülislam diqqətə çatdırıb ki, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təməlində və "bir millət, iki dövlət" fəlsəfəsinin bünövrəsində dini-mənəvi dəyərlərə sadiqlik, İslam həmrəyliyi ideyaları böyük önəm kəsb edir. Bu gün Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı İslam həmrəyliyinin ən bariz nümunəsidir.

Türkiyədə davam etməkdə olan terror aktlarına qarşı kəskin etirazını ifadə edən Şeyxülislam qeyd edib ki, FETÖ-nün 2016-cı ildə dövlət çevrilişinə cəhd hadisəsinə kəskin etiraz edən Azərbaycan xalqı bundan sonra da Türkiyə xalqının və dövlətinin yanında olacaq.

Azərbaycanda dini etiqad azadlığı, dinlər və təriqətlər arasındakı dostluq və qardaşlıq əlaqələrinin qorunması istiqamətində görülən tədbirlər barədə geniş məlumat verən DQİDK-nın sədri Mübariz Qurbanlı diqqətə çatdırıb ki, Sovet İttifaqı dağılan dövrdə ölkəmizdə 17 məscid vardısa, bu gün onların sayı 2200-dən çoxdur. Son on ildə ölkədə 140-a yaxın məscid inşa olunub, 80-dən çox məsciddə əsaslı təmir və yenidənqurma işləri görülüb. M.Qurbanlı bildirib ki, bu gün insanlığın ən qorxulu probleminə çevrilmiş radikalizm, ekstremizm, terrorizm minlərlə insanın ölümü, şəhərlərin dağıdılması, insanların öz vətənlərindən qovulması ilə nəticələnir. Terrorun, onu törədən terrorçunun dini və milli mənsubiyyəti olmur. Təəssüf ki, bütün bu antibəşəri aksiyanı sülh, sabitlik, sevgi dini olan İslam ilə eyniləşdirməyə çalışırlar.



Komitə sədri onu da qeyd edib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi bütün dünyada, xüsusilə İslam aləmində sülhə, dostluğa, sevgiyə və birgəyaşayışa mühüm çağırışdır.

Qafqaz İslam Ordusunun 1918-ci ildə Bakının daşnak-bolşevik işğalından azad olunmasında göstərdiyi xilaskarlıq missiyasının Azərbaycanda və Türkiyədə hər zaman təqdirlə qarşılandığını qeyd edən Türkiyənin Diyanət İşləri başqanı Ali Erbaş XX əsrin sonunda bərpa edilən müstəqilliyimizin Türkiyədə böyük sevinclə qarşılandığını diqqətə çatdırıb.

Milli Məclisin səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Türkiyə-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri

davamı səh. 3

əvvəli səh. 2

Necdet Ünüvar, Türkiyə Baş nazirinin müavini Bəkir Bozdağ, Milli Məclisin elm və təhsil komitəsinin sədri, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Bolqarıstanın Diyanət İşləri başqanı Mustafa Hacı, Rusiya Müsəlmanlarının Məclis başqanı, Moskva müftisi Albir Krqanov, Monteneqro Diyanət İşləri başqanı Rıfat Feyziç, Mərmərə Universitetinin ilahiyyat fakültəsinin dekanı Ali Köse, İstanbul müftisi Hasan Kamil Yılmaz, DQİDK sədrinin müavini Gündüz İsmayılov, QMİ sədrinin birinci müavini, müfti Salman Musayev, professorlar Azmi Özcan, İrfan Gündüz, Haluk Alkan və başqaları müzakirə olunan mövzu ilə bağlı fikir və mülahizələrini bölüşüblər.

Çıxışlarda qeyd olunub ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi və bu çərçivədə Azərbaycanda, Rusiyada, Finlandiyada, İranda və Türkiyədə beynəlxalq konfransların təşkili və bu sahədə görülən digər işlər müsəlman dünyasının birliyinə nail olmaq istiqamətində tarixi missiya daşıyır. Bəzi müsəlman ölkələrinin və xalqlarının haqsız olaraq münaqişə



və təcavüzlərlə üz-üzə qaldıqlarını ifadə edən çıxışçılar Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini kəskin şəkildə pisləyiblər. Bildirilib ki, Azərbaycan torpaqlarının iyirmi faizinin işğal altında saxlanılmasına əsas səbəb dünyadakı ikili standartlardır və bu ikili standartlar aradan qaldırılmalıdır. Bunun üçün İslam dünyası möhkəm həmrəyliyini davam etdirərək Azərbaycanın haqq işini fəal şəkildə müdafiə etməlidir. Əminliklə qeyd olunub ki, "İslam Həmrəyliyi ili" müsəlman ölkələri arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yüksəlişi üçün böyük töhfələr verəcək.

Natiqlər Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətlərini, həmçinin dövlət başçılarının İslam həmrəyliyinə nail olmaq üçün göstərdikləri birgə səyləri yüksək qiymətləndiriblər.

Şeyxülislam Allahşükür Paşazadə və DQİDK-nın sədri Mübariz Qurbanlı konfrans çərçivəsində Baş nazirin müavini Bəkir Bozdağ və Diyanət İşləri başqanı Ali Erbaş ilə ayrı-ayrılıqda görüşlər keçiriblər. Görüşlərdə Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri yüksək qiymətləndirilib.

Tərəflər əminliklə qeyd ediblər ki, dövlət başçılarımızın möhkəm siyasi iradələri və qardaşlıq münasibətləri əsasında Azərbaycan və Türkiyə daha böyük nailiyyətlər əldə edəcək.

Konfrans kommunikenin qəbul edilməsi ilə başa çatıb.

# Prezident İlham Əliyevin BMT-dəki çıxışı informasiya müharibəsində təcavüzkar Ermənistana ağır zərbədir



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı Sentyabrın 22-də www.yap.org.az saytına müsahibə verib.***

2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" edilməsi haqqında danışan Komitə sədri Prezident İlham Əliyevin bu təşəbbüsünün həm beynəlxalq, həm də regional səviyyədə çox böyük ictimai-siyasi, ideoloji əhəmiyyət daşıdığını və zamanın çağırışlarına cavab verən mühüm bir addım olduğunu vurğulayıb: "Müasir dövrdə İslam dünyasının həmrəyliyə çox böyük ehtiyacı var. Bu həmrəyliyi yaratmaq, bununla bağlı müəyyən addımlar atmaq üçün belə bir çağırışın edilməsi çox böyük önəm daşıyır. İslam həmrəyliyi ideyası yalnız 2017-ci illə məhdudlaşmır, bu, uzaq perspektivə hesablanmış çağırışdır".

Müsahibədə dövlət-din münasibətlərinin hazırkı vəziyyəti, dini radikalizm, xurafat, dini maarifləndirmənin effektivliyinin artırılması mövzusuna toxunan Mübariz Qurbanlı Azərbaycanın bütün dünyada tolerantlıq məkanı olduğunu, ölkəmizdə dini etiqadından və mənsubiyyətindən asılı olmayaraq hər kəsin vicdan azadlığının qorunduğunu, lakin bu vəziyyətdən sui-istifadə hallarının olduğunu bildirib: "Dövlət Komitəsi tərəfindən digər məsələlərdə olduğu kimi, paytaxtda və bölgələrdə dini radikalizm və ekstremizmlə mübarizə mövzusunda da geniş auditoriya üçün nəzərdə tutulan maarifləndirici tədbirlər keçirilir. Bu tədbirlər digər dövlət qurumları, eləcə də hüquq-mühafizə orqanları ilə birgə həyata keçirilir ki, bu da işin effektivliyinin artırılmasına xidmət edir".

Dini ədəbiyyatlarla bağlı sualları cavablandıran Komitə sədri Mübariz Qurbanlı bu sahədə də effektiv işlərin görüldüyünü qeyd edib. O, "Dini etiqad azadlığı haqqında" Qanunun 22-ci maddəsinə toxunaraq dini qurumlar, eləcə də dini qurum olmayan digər hüquqi və fiziki şəxslərin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə dini təyinatlı ədəbiyyatı, əşyaları, dini məzmunlu başqa məlumat materiallarını istehsal, idxal, ixrac edə, habelə sərbəst yaya biləcəklərini bildirib. Hər kəs Dövlət Komitəsi tərəfindən idxalına və ya çapına razılıq verilmiş, eləcə də nəzarət markası vurulmuş dini kitabı yaya bilər. Amma bu ictimai asayişin pozulması cəhdi, o cümlədən vətəndaşlara narahatlıq yaradılması ilə müşahidə olunmamalıdır. Əvvəlki illərlə müqayisədə zərərli dini ədəbiyyatların satışı, istehsalı və idxalı xeyli dərəcədə azalıb. Bu istiqamətdə görülmüş inzibati və profilaktik işlər öz bəhrəsini verib. Amma bu o demək deyil ki, bu gün hər hansı dini qrup zərərli dini ədəbiyyatı nəşr etmək və ya idxal edərək yaymaq istəmir. Bəzən dini ədəbiyyatların nəşri ilə bağlı Dövlət Komitəsinə müraciət edilərkən orada zərərli fikirlər aşkar edilir. Mütəxəssislər yalnız bu fikirlərin kitabdan çıxarılacağı təqdirdə kitabın nəşrinə razılıq verirlər, əks halda bu səpkili kitabların nəşrinə razılıq verilmir.

Komitə sədri Mübariz Qurbanlı Məhərrəm ayı ilə bağlı fikirlərini bildirərək deyib ki, İslam dinində müqəddəs aylardan sayılan Məhərrəm ayı, xüsusilə də Aşura günü zamanı ifrat hərəkətlərə yol verməməyi və mövcud qanunvericiliyin tələblərinə riayət etməyi tövsiyə edirəm. Azərbaycanda məscidlərdə bu və ya digər ayinlər həyata keçirilərkən Qafqaz Müsəlmanları İdarəsinin təsbiq və təqdim etdiyi təqvimə əməl olunmalıdır. Bu təqvimdən kənara çıxmaq olmaz. Çünki Azərbaycan Respublikasında İslam dini qurumları öz tarixi dini mərkəzində - Qafqaz Müsəlmanlar İdarəsində birləşirlər və bu dini mərkəz tərəfindən tərtib olunan təqvimlər bütün dini icmalar üçün keçərlidir. Məzhəbindən asılı olmayaraq, hər kəs bu təqvimlərə əməl etməlidir: "Müxtəlif dini atributları məsciddən kənarda nümayiş etdirmək olmaz. Xüsusilə də bədənə xəsarət yetirmək, zəncir vurmaqla qan çıxarmaq və ya qan çıxarma ilə müşayiət olunan bədənə işgəncə vasitələrindən istifadə etmək yolverilməzdir. Komitənin yerlərdəki şöbələri qanunvericiliyin tələblərinə əməl olunması ilə bağlı monitorinqlər keçirəcək. Əgər hər hansı pozuntular olsa, onunla əlaqədar müvafiq tədbirlər görüləcək. Əminəm ki, hamı bu qanuna əməl edəcək. Nəzərinizə çatdırım ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən yerlərdə Məhərrəm ayının keçirilməsi ilə bağlı mütəmadi izahat və maarifləndirmə işləri aparılır. Bəzən belə fikir səsləndirilir ki, guya əzadarlıq zamanı mikrofondan istifadə etmək qadağandır. Xeyr, buna məhdudiyyət qoyulmayıb. Amma burada bir önəmli məqama diqqət çəkmək istərdim. Belə ki, əgər iki məscid arasında məsafə azdırsa, əzadarlıq zamanı səs gücləndiricilərdən ehtiyatla istifadə edilməlidir, çünki səs başqa məscidə gedən əzadarlıq mərasiminə maneçilik törədə bilər. Bir sözlə, əzadarlıq mərasimləri keçirərkən diqqətli olmağa və heç kimi narahat etməməyə səy göstərməliyik. Sonda hər il Məhərrəmlik ayı zamanı Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə talassemiya və hemofiliya xəstələri üçün keçirilən ənənəvi qanvermə aksiyası kimi xeyirxah işdə dindarları fəal iştirak etməyə çağırmaq istərdim".

Dövlət Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxışı ilə bağlı da öz fikirlərini bildirib. Qeyd edib ki, Azərbaycan Dağlıq Qarabağ probleminin sülh yolu ilə tərəfdarıdır və buna görə də danışıqlar prosesinin davam etməsində maraqlıdır. Azərbaycan tərəfi müxtəlif səviyyələrdə, o cümlədən, BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində Ermənistanın təcavüzkar siyasəti ilə bağlı mövqeyini bildirir və işğalçı dövlətin münaqişənin sülh yolu həllində maraqlı olmadığını bəyan edir: "Eyni zamanda, mövqeyimiz bundan ibarətdir ki, Minsk qrupunun fəaliyyəti qaneedici deyil və Azərbaycan xalqı həmsədrlərin fəaliyyətindən narazıdır. Çünki sülh prosesində hər hansı irəliləyiş yoxdur. BMT Baş Assambleyasının 72-ci sessiyasında Prezidentimiz cənab İlham Əliyevin çıxışı həm Ermənistan, həm də beynəlxalq birlik üçün ciddi mesajdır. Dövlətimizin başçısı bildirdi ki, Ermənistana təzyiq göstərilməli və Ermənistanın təcavüzkar dövlət kimi işğal etdiyi torpaqlardan çıxması təkidlə tələb olunmalıdır. Bunun üçün isə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri icra olunmalıdır. Azərbaycan tərəfi münaqişənin tezliklə beynəlxalq hüquq normalarına uyğun və ədalətli şəkildə həllinin tərəfdarıdır. Münaqişənin hələ də həll olunmaması və beynəlxalq birlik tərəfindən bunun üçün səylərin gücləndirilməməsi Azərbaycan cəmiyyətində narazılıqla qarşılanır. İşğalçı Ermənistan müxtəlif bəhanələrlə status-kvonu saxlamağa çalışır. Ölkəmiz isə belə vəziyyətin davam etməsini qəbuledilməz sayır. Ona görə də beynəlxalq birlik, o cümlədən BMT, ATƏT və digər beynəlxalq qurumlar konkret nəticələrə hesablanmış addımlar atmalıdırlar. Ermənistanın prezidenti də BMT-də şər və böhtan dolu çıxış etdi. Sarqsyan mövcud reallıqları təhrif etməyə cəhd göstərdi və Azərbaycana qarşı iftiralar atmaqla saxta çıxış etdi. Amma erməni yalanları artıq dünyada ciddi qəbul olunmur. Prezident İlham Əliyevin BMT-də çıxışı isə bir daha informasiya müharibəsində təcavüzkar Ermənistana ağır zərbə oldu".

# “Şəhadət" gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfədir








"Şəhadət" sənədli filmi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunub.

Sentyabrın 22-də Dövlət Təhlükəsizlik Xidmətinin Mədəniyyət Mərkəzində "Şəhadət" sənədli filminin təqdimat mərasimi keçirilib. Film Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilib. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə olan, eləcə də dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv xarakter daşıyan ekran əsərinin təqdimatında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, DTX, Müdafiə və Daxili İşlər nazirliklərinin, Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və əməkdaşları, Yeni Azərbaycan Partiyasının fəal gəncləri, həmçinin dini icma nümayəndələri iştirak ediblər.

Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizm və radikalizmin təsirinə məruz qalan, bir sıra xarici ölkələrdəki ekstremist - terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs olunub. Ekran işində bir tərəfdən Vətənin müqəddəsliyi və onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı, qəhrəmanlığın gətirdiyi fəxarət hissi təbliğ olunur, digər tərəfdən isə radikalizmin cəmiyyət, dövlət, ailə üçün hansı faciələrə səbəb olduğu real faktlarla tamaşaçılara təqdim edilir. Ölkəmizdə dini radikalizmə qarşı həyata keçirilən maarifləndirmə tədbirlərinin effektivliyinin artırılması, vətənpərvərliyin təbliği və təşviqi məqsədilə hazırlanan "Şəhadət" də vətənə sevgi ilə yanaşı, eyni zamanda, dini ekstremizm bataqlığının faciələrinə diqqət çəkilir.

Ekran əsərinin rejissoru və ssenari müəllifi Nadir Bədəlov, məsləhətçiləri komitənin sədr müavinləri Səyavuş Heydərov və Gündüz İsmayılovdur.

# Bakıda “Qeyri-hökumət təşkilatları və dini icmalar: əməkdaşlıqdan birgə fəaliyyətə doğru” adlı konfrans keçirilib



Sentyabrın 28-də Bakıda Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə “Qeyri-hökumət təşkilatları və dini icmalar: əməkdaşlıqdan birgə fəaliyyətə doğru” adlı konfrans keçirilib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev, Milli Məclisin deputatları, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Milli QHT Forumunun təmsilçiləri, dini konfessiyaların, ictimai birliklərin rəhbər və nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən Mübariz Qurbanlı bildirib ki, tədbir Azərbaycan Prezidenti tərəfindən elan olunmuş “İslam Həmrəyliyi İli” çərçivəsində keçirilir. “Azərbaycanda islami dəyərlərin təbliğində dini maarifçiliyə geniş yer ayrılır. Cəhalət, xurafat olan yerdə mütləq dini radikalizm baş qaldırır. Dini radikalizmin yaranması üçün mühit olmamalıdır. O mühitin olmaması üçün isə elm, təhsil mütləqdir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin tərkib hissəsində milli mənəvi dəyərlərimizin qorunması önəmli yerlərdən birini tutur. Bu dəyərləri qorumaq üçün təbii ki, dini maarifləndirməyə də xüsusi diqqət yetirməliyik”, - deyə M.Qurbanlı vurğulayıb.

Azay Quliyev çıxışında konfransın gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması baxımından önəmini qeyd edib. Şura sədri milli mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi, eləcə də bu sahədə qarşıda duran vəzifələrin icrası istiqamətində görülən işlərdən də ətraflı danışıb. Dini radikalizmin qarşısının alınmasında ən mühüm addımın maarifləndirmə olduğunu qeyd edən A.Quliyev gənclərimizin radikalizmdən uzaqlaşdırılması, onlara vətənpərvərlik və dövlətçilik hissinin aşılanması, milli mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində bu cür layihələrin reallaşdırılmasının vacibliyindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Hacı Salman Musayev bildirib ki, QMİ tərəfindən maarifləndirmə işlərinə getdikcə daha çox önəm verilir və artıq bu ildən başlayaraq mərkəzi məscidlərdə “Quran” kursları açılıb. O, radikal dini qrupların və qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, onlara qarşı səmərəli mübarizə aparılması və dini maarifçilik işinin düzgün metodlarla təşkili istiqamətində görülən işlər barədə məlumat verib. Həmçinin gənclərin milli mənəvi ruhda tərbiyə edilməsi və düzgün maarifləndirilməsinin əhəmiyyətindən, onları radikal təsirlərdən qorumağın yollarından bəhs edib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Çingiz Qənizadə, Qüdrət Həsənquliyev, Musa Qasımlı, dini icmaların rəhbərləri və nümayəndələri indiki həssas dövrdə dindarları daha diqqətli olmağa, həmçinin dini maarifləndirmə işinin artırılmasına, cəmiyyətdə radikallığa şərait yaradan halların aradan qaldırılması istiqamətində hamının səfərbər olmasına, mövcud dini sabitliyi və dini dəyərləri qoruyub saxlamağa çağırıblar.



# Mübariz Qurbanlı QMİ-nin məscidlərə təyin edilən din xadimlərini «imam» adlandırmasına münasibət bildirib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurasının məscidlərə təyin edilən din xadimlərinin "imam" adlandırılması qərarına münasibət bildirib.

Dövlət Komitəsinin sədri "Report"un Türkiyə bürosuna açıqlamasında bildirib ki, Azərbaycanda məscidlərə və onun idarəçiliyinə cavabdeh qurum Qafqaz Müsəlmanları İdarəsidir: "Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi fəaliyyət göstərən məscidlərə rəsmi din xadimləri təyin olunur. Bu günlərdə Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının toplantısı keçirilərkən Şeyxülislam həzrətləri təklif etdi ki, Azərbaycanda din xadimləri vahid sistem əsasında, eyni ad altında təmsil olunsun. Həmin Qazılar Şurasındakı müzakirənin nəticəsində səsvermə ilə qərara alındı ki, bundan sonra Azərbaycanda məscidlərə təyin olunan din xadimləri "imam" adlandırılsın. Buna qədər də "imam" termini Azərbaycan məscidlərində işlədilirdi. Biz İslam həmrəyliyi, vəhdət istiqamətində siyasətimizi həyata keçirdiyimizə görə, məscidlərə təyin olunan din xadimlərini məzhəbə görə adlandırmağın doğru olmadığını açıq şəkildə bildirdik və Şeyxülislamın bu təklifi də Qazılar Şurası tərəfindən təsdiq olundu. İndi Azərbaycanda din xadimlərinin təyinatı zamanı müxtəlif dini vəzifə adları müəyyən edilib. Bunlardan "mütəvəli", "imam-naib", "imam", "QMİ-nin səlahiyyətli nümayəndəsi", "Şeyxülislam tərəfindən təyin olunmuş qazılar". Bunlar Azərbaycanda din sahəsində, dini idarəçilikdə çalışacaq vəzifəli din xadimlərinin təyin edildiyi vəzifələrdir. Burada heç bir ayrı-seçkilik yoxdur, bu, bir sistemdir və bundan sonra QMİ tərəfindən həyata keçiriləcək. Orada din xadimlərinin təyinatı da Qazılar Şurası tərəfindən həll olunur. Şeyx təklif edir, onlar müzakirə edir, orada xüsusi yoxlamadan keçir, imtahan verir və bundan sonra rəsmi təyinat alır. Din xadimlərinin rəsmi təyinatı məsələsi Azərbaycanda ardıcıl olaraq həyata keçirilir. Dövlət Komitəsi də bu işlərdə QMİ ilə birgə iştirak edir. Hesab edirəm ki, bu təklif və bu addım çox önəmlidir və Azərbaycan üçün də bügün çox dəyərlidir, yararlıdır".

# "İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"



Sentyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Şəki şəhərində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zərinə Cavadova, DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin müdiri Gündüz Paşayev və şöbənin əməkdaşları, Şəki Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov, QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazısı Kamran Məmmədov, dini icma sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

* * *

Bu mövzuda digər tədbir isə sentyabrın 22-də Oğuz rayonunda DQİDK-nın təşkilatçılığı ilə keçirilib. Seminar-müşavirədə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Oğuz Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Yusif Naxçıvanski, DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin əməkdaşları, QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazısı, dini icma sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirlərdə çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı məruzəsində Prezident cənab İlham Əliyevin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə, eyni zamanda məzhəblər arasında dini tolerantlığın qorunması, həmrəyliyin təmin edilməsi və dini radikalizmə qarşı mübarizənin gücləndirilməsi sahəsində DQİDK tərəfindən həyata keçirilən silsilə tədbirlərin əhəmiyyətindən danışıb.

Digər natiqlər isə ölkəmizdə bütün dini konfessiyaların nümayəndələrinə bərabər münasibət göstərildiyini vurğulayaraq Azərbaycandakı multikultural və tolerant mühitin bütün dünyada müasir və mütərəqqi model kimi qəbul edildiyini diqqətə çatdırıblar.

Həmçinin ölkə rəhbərliyi səviyyəsində İslama, onun mübarək bayramlarına yüksək hörmət, ehtiram, etiqadın mövcud olduğu, Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində mütərəqqi dini dəyərlərin cəmiyyətdə möhkəmləndirilməsinə xidmət etdiyi vurğulanıb.

Seminar-müşavirələr iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.



# "İslam Həmrəyliyi İli" çərçivəsində dini icmalarda maarifləndirmə layihələrinin icrası davam edəcək

Sentyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2017-ci il "İslam həmrəyliyi ili" çərçivəsində maliyyə yardımı ayrılmış icma sədrlərinin iştirakı ilə tədbir keçirilib.

Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərlərinin iştirak etdiyi tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, dini icmalar tərəfindən layihələr həyata keçirilməsində əsas məqsəd İslam həmrəyliyinin, eləcə də dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği işinin həyata keçirilməsidir.



Dövlətin bu sahəyə diqqətindən danışan Dövlət Komitəsi sədrinin birinci müavininin sözlərinə görə, Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox mühüm diqqət və qayğı göstərir. S. Salahlı, eyni zamanda İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə tövsiyələrini də verib. Naxçıvan da daxil olmaqla respublikanın digər bölgələrini əhatə edən dini icmaların həyata keçirəcəkləri layihələrdə dini ənənələrimizi və milli-mənəvi, eləcə də xalqımızın dərin tarixi köklərə malik tolerant və multikultural dəyərlərimizi daha geniş ictimaiyyətə çatdırmaq, maarifləndirmə işini yerlərdə təkmilləşdirmək nəzərdə tutulur.

Dini icma sədrləri tədbirdə çıxış edərək dini sahəyə göstərdiyi diqqət və qayğıya, həmçinin dini icmalara ayrılan vəsaitə görə Prezident İlham Əliyevə dindarlar adından təşəkkürlərini bildiriblər.

# Səyyad Salahlı: "Azərbaycan xalqının mənəvi irsi İslam dəyərləri üzərində formalaşıb




***Sentyabrın 28-29-da Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində "Müasir dünyəvi dövlətdə İslam" mövzusunda beynəlxalq konfrans keçirilib. 19 ölkənin hökumət nümayəndələrinin, ilahiyyatçıların və ruhanilərin iştirak etdiyi konfransda Azərbaycanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı və Bakı Dövlət Universitetinin müəllimi, ilahiyyatçı Aqil Şirinov təmsil edib.***

***Tədbirin təşəbbüskarı olan Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev çıxışında bildirib ki, dünyada sülhə və sabitliyə nail olmaq üçün milli dəyərləri qorumaq və gücləndirmək lazımdır. Onun sözlərinə görə, yad dəyərlərin İslam adı altında təqdim edilməsi dözümsüzlüyə və nifaqa səbəb olur: "Bu ideoloji fikir ayrılıqlarından istifadə edən din pərdəsi altında gizlənmiş radikal və ekstremist qüvvələr insanların arasına hərc-mərclik salır, silahlı iğtişaşlar və terror aktları törədirlər. Dünyanın heç bir ölkəsi bu cür təhlükələrdən sığortalanmayıb".***

***Dini radikalizmə və ekstremizmə alternativ kimi dünyada tolerantlıq və birgəyaşayış mədəniyyətinin təbliğ edilməsinin, o cümlədən saf İslam dəyərlərinin qorunub saxlanılmasının və bütün bəşəriyyətin rifahı naminə İslam həmrəyliyinin inkişaf etdirilməsinin əhəmiyyətindən danışılan tədbirdə Dövlət Komitəsinin sədr müavini Səyyad Salahlı "Dünyəvi dövlətdə İslam: Azərbaycan nümunəsi" adlı məruzə ilə çıxış edib. Məruzəni diqqətinizə təqdim edirik.***

Azərbaycanın Sovetlər Birliyinin tabeliyində yaşadığı 71 il ərzində ateizmə əsaslanan kommunizmin cəmiyyətdə rəsmi və intensiv şəkildə təbliği dini ənənələrimizin zəifləməsinə və insanların dini biliklərdən uzaq düşməsinə gətirib çıxarmışdır.

Sovetlər dağıldıqdan və Azərbaycan dövlət müstəqilliyini ikinci dəfə bərpa etdikdən sonra həm kommunizm, həm də ateizmdən imtina olunmuş, dinə sərbəstlik verilmiş, milli-mənəvi dəyərlərə qayıdış prosesi baş vermiş, dövlət-din münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin olunmuş, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırılmış, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyulmuşdur. Azərbaycan xalqı öz milli və dini bayramlarını azad, sərbəst şəkildə qeyd etmək hüququ əldə etmiş, ölkə vətəndaşlarının müqəddəs yerlərə ziyarətinin təşkili üçün şərait yaradılmışdır. İllər boyu baxımsızlıqdan uçub dağılmış pir və ziyarətgahlar fəaliyyətini yenidən bərpa etmiş, gənc nəslin sağlam ruhda, milli-mənəvi dəyərlərə sadiq yetişməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Lakin ateizmə əsaslanan ictimai-siyasi quruluşdan demokratik dəyərlərə keçid zamanı din sahəsində ciddi boşluqlar yarandı. Əslində belə vəziyyət başa düşülən idi. Təsəvvür edin ki, qısa müddətdə dövlət bütün inanclara və dindarlara sərbəstlik verir, onların fəaliyyətinə nəinki maneçilik törədilmir, əksinə bir çox hallarda dəstək verilir. 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" Qanun qəbul olunur ki, bu sənəd vicdan azadlığı sahəsində dünyada ən demokratik qanunlardan biri kimi qarşılanır.

Dövlətin dini etiqad və vicdan azadlığının təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlərdən öz məqsədləri üçün istifadə etməyə cəhd göstərən qüvvələr meydana çıxmışdır. Belə ki, müstəqilliyin ilk illərində missioner təşkilatlar Azərbaycan xalqının humanistliyindən, ölkədə yaranmış qeyri-sabit sosial-iqtisadi vəziyyətdən və Dağlıq Qarabağda ağır döyüşlərin getməsi nəticəsində 1 milyona yaxın azərbaycanlının doğma yurd-yuvasından didərgin düşməsindən məharətlə istifadə edərək, Bakını digər müsəlman ölkələrində təriqətçilik təbliğatı aparacaq mərkəzə çevirməyi, dini durumu gərginləşdirməyi, radikal dini təriqətlərin Azərbaycanda yayılmasını qarşılarına məqsəd qoymuşlar. İslam dini haqqında kifayət qədər məlumatı olmayan cəmiyyətimiz xarici missionerlərin hədəfinə çevrilmişdi. Hətta qonşu ölkələrdə fəaliyyəti qanunla qadağan edilmiş bir sıra qeyri-ənənəvi cərəyanların, qeyri-səmavi din mənsublarının fəaliyyəti təhlükə təşkil etmişdi. Məhz belə bir vaxtda yenidən hakimiyyətə gəlmiş Ulu Öndər Heydər Əliyev sayəsində bu missioner təşkilatlar tez müddətdə ölkədən çıxarılmış və 1997-ci ildə əcnəbilər, vətəndaşlığı olmayan şəxslərin ölkədə dini təbliğat aparmasına qanunla qadağa qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, İslamın birləşdirici, bütünləşdirici xüsusiyyətləri respublikamızda özünü hər zaman göstərmişdir. Kiçik ölkə olmasına baxmayaraq, onlarla millətin Azərbaycanda bir arada mehriban yaşaması yenə də İslamın bu özəlliyindən irəli gəlir. Çünki İslam dini etnik və irqi müxtəlifliyi zənginlik kimi dəyərləndirir. Azərbaycan da millətlərin çoxluğunu zənginlik və dəyər olaraq görür. Digər dinlərə hörmətlə yanaşmağı tövsiyə edən dinimiz kimi, dövlətimiz də bu ənənəni tarix boyu uğurla yaşatmışdır. Qeyd edim ki, ölkəmizdə bu ənənənin kökləri tarixin dərinliklərinə gedib çıxır. 2500 ildir yəhudilər Azərbaycan torpağında özlərinə sığınacaq tapmışlar (nümunə Quba rayon Qırmızı qəsəbə). Eramızın birinci əsrin ortalarında xristianlığın ilk ardıcılları Azərbaycana pənah gətirmişlər. XIX əsrdə Azərbaycanın müxtəlif bölgələrində qeyri-ənənəvi dini etiqada görə Rusiyada təqibə məruz qalan rusların – duxoborların, molokanların yığcam yaşadıqları məskənlər yaranmışdır. Onların nəsilləri Azərbaycanda bu gün də yaşayırlar.

Respublikamızda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, keçmişimizdən qalan mütərəqqi ənənədir. XIX əsrin sonlarına yaxın Bakı şəhərində "Qızılı kilsə" kimi tanınan "Aleksandr - Nevski" kilsəsinin inşası üçün toplanılmış ianənin böyük hissəsinin müsəlmanlar tərəfindən verilməsi dünya tolerantlıq tarixinin ən parlaq səhifəsidir. 1907-ci ildə məşhur neft maqnatı H.Z.Tağıyev tərəfindən inşa etdirilən Jen Mironosets Baş Kafedral Kilsəsi təxminən 100 ildən sonra müsəlman Aydın Qurbanovun maliyyə dəstəyi ilə bərpa olunmuşdur ki, bu da özlüyündə ümumbəşəri dəyərlərin nəsillər dəyişdikcə Azərbaycanda yaşayacağına işarədir.

Müxtəlif din mənsublarının ölkəmizdə tarixən dinc, mehriban və tolerantlıq şəraitində yaşamasının ən bariz nümunəsi, heç şübhəsiz, Bakının mərkəzində 1 km-dən az radiusda hər üç səmavi dinin ibadət yerlərinin – məscid, kilsə və sinaqoqun yerləşməsidir.

Nəzərinizə çatdırım ki, Azərbaycan Respublikası dünyəvilik, demokratik respublika üsul-idarəsini seçmişdir. Müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə referendum yolu ilə qəbul olunmuş Azərbaycan Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında formalaşan dünyəvilik sistemi bir sıra ölkələrlə müqayisədə daha mütərəqqi və ədalətlidir. Ölkəmiz müasir, dünyəvi, demokratik olsa da, nəzərə alınmalıdır ki, həm də müsəlman ölkəsidir. Buna görə də, İslam dini ilə bağlı amili, xüsusilə bu dinin dünyəviliyə, dövlətə münasibətini nəzərə almaq mütləqdir. Əks təqdirdə, dövlət-din (İslam) qarşıdurması qaçılmaz olar.

Dinin dövlətdən ayrı olması Konstitusiyamızda da öz əksini tapmışdır. Bu halda dinin cəmiyyətdəki mövqeyi cəmiyyətin ehtiyacına görə təyin edilir. Dövlətin sosial, siyasi, iqtisadi və hüquqi statusunu müəyyən edən qanunlar hazırlanarkən bu aspekt də nəzərə alınır.

Dinin dövlətdən ayrı olmasına baxmayaraq, Azərbaycan xalqının mənəvi irsi İslam dəyərləri üzərində formalaşmışdır. Ulu Öndərin "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik" – fikri bu sahədə görüləcək işlərin zəruriliyi baxımından ciddi əsas təşkil edir. Heydər Əliyevin qurduğu Azərbaycan dövlətçiliyi milli-mənəvi, yəni din ilə dövlətin yeni vəhdət modelidir. Bu, əslində, müasir İslam dövlətçiliyinin tələblərinə uyğun gələn sistemdir. İslam dövlətçiliyi təcrübəsində isə din ilə dövlət arasında heç zaman ziddiyyət olmamış, onlar vahid dövlətçilik sistemində vəhdət şəklində inkişaf etmişlər.

Azərbaycanda tətbiq olunan dünyəvilik prinsipi dini cəmiyyətin həyatından təcrid etməyi qarşısına məqsəd qoyan ekskluzivist dünyəvilik deyildir. Ölkədə dünyəvilik prinsipinə əsasən, bütün dinlərə və dini qruplara qarşı tərəfsiz mövqe nümayiş etdirilməklə yanaşı, dini icmalarla dövlət arasındakı əlaqə pozitiv xarakter daşıyır. Müxtəlif dinlərə mənsub olan dini icmalara dövlət tərəfindən mütəmadi olaraq dəstək verilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl olaraq həyata keçirilən tolerantlıq və mültikultural siyasət müxtəlif dinlərin qarşılıqlı hörmət şəraitində birgəyaşayışının təmin edilməsinə yönəlmişdir. Məhz bunun nəticəsi olaraq dövlətin demokratik-dünyəvi mahiyyəti dindar insanlar tərəfindən də qəbul olunur. Dindarlığın ictimai şüurda varlığı "din dövlətdən ayrıdır" prinsipinə zidd deyil, çünki dindarlıq da cəmiyyətin mədəniyyət dəyərləri kompleksinə aiddir. Ona görə də, Azərbaycan dövləti cəmiyyətin demokratik əsaslar üzərində inkişafında dünyəviliklə yanaşı, dinin də iştirak etməsində maraqlıdır. Ümumiyyətlə, dindarlıqla dünyəviliyin harmonik vəhdəti xalqımızın milli dövlətçiliyinin fərqləndirici xüsusiyyətlərindəndir. Bu səbəbdən Azərbaycan siyasi İslamın sosial dayaqdan məhrum olduğu nadir müsəlman ölkələrindəndir. Bu baxımdan ölkəmiz İslam dünyası üçün model ola biləcək struktura sahibdir.

Dövlət-din münasibətlərində Azərbaycan modelinin əhəmiyyəti ondadır ki, dövlət məzhəbə dayanan dinə deyil, ekstremizmdən uzaq ortadoksal və təməl əsaslara söykənən dinə əhəmiyyət verir. Bu istiqamətdə aparılan siyasət istər dövlət, istərsə də ictimaiyyət üçün xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrümüzdə geniş vüsət almış dini ekstremizmin qarşısını almağın əsas yollarından biri məhz budur.

Bu gün Prezident İlham Əliyevin Ulu Öndərin zəngin siyasi irsinə söykənən ardıcıl, məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmiz dinə, vicdan azadlığına münasibətdə nümunəvi dövlətə çevrilmişdir. Ümumiyyətlə, qeyd edilməlidir ki, cənab İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın əsas təminatçısı və himayədarıdır. Məlumat üçün bildirək ki, İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi 2003-cü ildən indiyədək ölkədə dövlətin dəstəyi

davamı səh. 7

əvvəli səh. 6

ilə 250-dək məscid tikilmiş və ya bərpa edilmişdir. Məlumat üçün diqqətinizə çatdırım ki, Sovet dövründə Azərbaycanda məscidlərin sayı 17 olduğu halda, hazırda ölkədə 2248 məscid, o cümlədən 14 kilsə və 7 sinaqoq fəaliyyət göstərir.

İlham Əliyev üçün İslam dini Azərbaycanın həm bugününə, həm keçmişinə, həm də mənəviyyatına sadiqlik anlamını ifadə edir. Dövlət başçımız iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə İslamı hər cəhdlə müdafiə etmişdir. Fikrimizin əyani sübutu kimi qeyd edək ki, Prezident İlham Əliyev UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda: "İslamı terrorla bağlamaq qəbuledilməzdir" - deyərək etirazını bildirmişdir.

İslam dünyasında məzhəb ayrı-seçkiliyinin tüğyan etdiyi müasir dövrdə cənab İlham Əliyevin təşəbbüsü ilə 15 yanvar 2016-cı ildə Qafqazın ən böyük məscidi olan "Heydər" məscidində məzhəbindən asılı olmayaraq müsəlmanların vəhdət namazı qılması dünyaya açıq sülh mesajı kimi qəbul edilməlidir. Ölkəmiz bu mesajı verməklə tarixi adət-ənənələrinə olan sadiqliyini, müasir günümüzdə onları daha mükəmməl və ideal variantda davam etdirməkdə maraqlı olduğunu bir daha bəyan etmişdir. Qeyd edək ki, vəhdət namazı respublikada sünni-şiə kontingentinin yaxınlaşmasında körpü rolunu oynayır. Bu namaz vasitəsilə Azərbaycan dindarları məzhəbindən və dini görüşündən asılı olmayaraq İslamın bizdən tələb etdiyi birlik və bərabərliyi qoruyub saxladığını nümayiş etdirirlər. Bununla da, ölkəmiz dindarların timsalında nəinki müsəlman aləminə, bütövlüklə dünyaya birlik və bərabərlik çağırışı etmişdir. Vəhdət namazı, eyni zamanda Azərbaycan təcrübəsindən yararlanmağın zəruri olduğunu bir daha göstərir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun yaradılması, multikulturalizm sahəsində ən optimal model seçilən Azərbaycan nümunəsinin öyrənilməsi məqsədilə Avropa ölkələrində "Azərbaycan multikulturalizmi" fənninin tədrisinə başlanılması ölkə başçımızın hər zaman müstəqil, şəffaf və dürüst siyasət tərəfdarı olduğunun bir daha təsdiq edir.

Bu sahədə görülən işlərin davamı olaraq, dövlət başçısının müvafiq sərəncamları ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunması və bu il çərçivəsində Bakının IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi etməsi ölkəmizin əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərinin – sülhün, dostluğun, sevginin və birgəyaşayışın dünyaya ixrac edilməsi yolunda mühüm töhfəsidir. Müsəlman ölkələri arasında həmrəyliyə xüsusi əhəmiyyət verən Prezidentimizin İslam həmrəyliyinə çağırışı müsəlman xalqlarının və ölkələrinin iqtisadi, elmi, mədəni əməkdaşlığına, eyni zamanda İslam dininin irəli sürdüyü bərabərlik, ədalət, mənəviyyat, insanpərvərlik, sülh ideyalarını daim diqqət mərkəzində saxlamağa xidmət edir. IV İslam Oyunlarının bağlanış mərasimində Prezident İlham Əliyev bu barədə demişdir: "Bizim müsəlman aləmində siyasətimiz ondan ibarətdir ki, birlik, həmrəylik güclənsin, müsəlman ölkələri arasındakı bəzi ixtilaflara, müharibələrə son qoyulsun. Müsəlman aləmi birlik nümayiş etdirməlidir. Ancaq bu təqdirdə xalqlarımız gələcəkdə rahat və firavan yaşaya bilərlər. Ona görə, bizim apardığımız siyasət və bu oyunlarda verdiyimiz töhfə əminəm ki, müsəlman aləminin birləşməsinə gətirib çıxaracaq".

Tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizin Şərqlə Qərb arasında körpü rolunu oynaması Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyəti sayəsində daha çox aktuallıq kəsb etmişdir. Qeyd edək ki, Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir həyata keçirmişdir. Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu bu layihələr çərçivəsində dini abidələrdə, ziyarətgahlarda, tikililərdə təmir-bərpa işləri aparır, müxtəlif konfranslar və sərgilər təşkil edir.

Fərəhləndirici haldır ki, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər respublikanın hüdudlarını aşmışdır. Belə ki, ölkənin Birinci vitse-prezidentinin rəhbərlik etdiyi Fondun Fransanın Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Strasburq və bu ölkənin digər regionlarında kilsələrin təmirində, eləcə də Romadakı katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında yaxından iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirin şərəfinə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

Sonda qeyd edim ki, Azərbaycanın İslam dünyası üçün unikallığı və vacibliyi ondadır ki, dövlətimiz İslamı siyasi alətə çevirmir, məzhəb maraqları səviyyəsinə endirmir, ona bəşəriyyətin mənəvi sərvəti kimi yanaşır və qorumağa çalışır. Azərbaycan xarici siyasətində məzhəb maraqlarından, siyasi oyunlardan üstdə dayanan təmiz İslam dəyərlərinin qorunub saxlanması, inkişaf etdirilməsi və bütün bəşəriyyətin rifahı naminə İslam həmrəyliyi arzusundadır və bunun üçün əzmlə çalışır.

Diqqətinizə görə təşəkkür edirəm!

# İLAHİYYATÇI ALİM VƏ YA İSLAM ALİMİ



Günümüzdə dini mövzular və proseslər ən çox müzakirə olunan məsələlərdəndir. Maraqlısı da odur ki, səthi dini biliklərə malik bəzi şəxslər alim, mütəxəssis kimi təqdim olunurlar. Bəs, dini mövzuda fikir bildirən, öz kasad bilgilərinə əsaslanaraq hətta fətva verən, din adından çıxış edən belə şəxslərə İslam alimi və ya ilahiyyatçı alim demək nə dərəcədə doğrudur?!

"İlahiyyatçı" – ilahiyyat elmi ilə məşğul olan, mədrəsə və ya dini kursları, İlahiyyat fakültəsini bitirməklə kifayətlənməyərək bu sahədə fəaliyyət göstərən və davamlı olaraq dini mövzulardakı problemlər üzərində obyektiv tədqiqatlar aparan, elmi işlər ərsəyə gətirən mütəxəssisdir.

İlahiyyatçı bütün məsələlərə mənəvi-əxlaqi baxımdan yanaşaraq, əsasən humanist, tərbiyəvi fikirlər yürütməlidir. O, mənsub olduğu din, qəbul etdiyi məzhəblə yanaşı, digər dinlərin, məzhəb və cərəyanların da nəzəriyyələrini bilməlidir. Dünyəvi dövlətdə fəaliyyət göstərən İslam alimləri dünyəvi dünyagörüşünə də malik olmalı, dünyəvi dövlətdəki fəaliyyətini və fikirlərini buna görə tənzimləməlidir.

Tarix boyu Azərbaycanda xalq və dövlət tərəfindən İslam dininə olduğu kimi, din adamlarına və İslam alimlərinə də dəyər verilmiş, onlara sahib çıxılmışdır. Azərbaycan Respublikasında istər Ümummili Lider Heydər Əliyev, istərsə də Prezident cənab İlham Əliyev hər zaman İslam dininə, onun dəyərlərinin qorunub-yaşadılmasına diqqət etmişlər. O cümlədən də din adamlarına, İslam alimlərinə hər zaman qayğı ilə yanaşılmış, dövlət səviyyəsində onların məqamı daim uca tutulmuşdur. Çünki onlara hər zaman İslam dəyərlərini qoruyub-yaşadan şəxsiyyətlər kimi baxılmışdır. Bu missiya bu gün də öz aktuallığını saxlamaqdadır.

Buna baxmayaraq, din adından qanunsuz şəkildə "partiyalar", "ictimai təşkilatlar" yaradaraq ölkəmizdəki uğurlu dövlət-din siyasətinə, dini etiqad azadlığına, tolerantlıq mühitinə kölgə salmaq istəyən qüvvələr də mövcuddur. Sayları az olsa da, təəssüflər olsun ki, fəaliyyətdədirlər.

Ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmağa, əmin-amanlığı, sabitliyi pozmağa, digər ölkələrin milli xüsusiyyətlərini, dini ideologiyalarını İslam adı altında ölkəmizdə təbliğ etməyə çalışan bəzi qruplar mövcuddur. Onlar sözügedən məkrli planlarını həyata keçirmək məqsədilə geniş dünyagörüşünə malik olmayan və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslərdən və oyunlardan bixəbər insanlara təsir göstərərək öz təraflarına toplayır, dindarlar arasında müəyyən qədər "populyarlıq" qazanmış, "İslam alimləri" adlandırdıqları həmin şəxsləri özlərinə lider kimi qəbul edirlər. Həmin "İslam alimləri" də populist şüarlarla ölkədəki bəzi sosial problemləri qabardaraq, dünyəvi dövlətə qarşı düşmənçilik hissi aşılayır, yad dini-siyasi ideologiyaların cəlbedici cəhətlərini şüar edir, dini siyasiləşdirməyə çalışır, öz planlarına zidd addımlar gördükdə hakimiyyəti "vətənə xəyanətdə" ittiham edir... Budur onların fəaliyyəti...

Diqqət çəkən digər məqam isə ondan ibarətdir ki, həmin "İslam alimləri" siyasi proseslərə qarışaraq məscidlərin minbərindən siyasi tribunalar kimi istifadə etməyə, siyasi çağırışlar edərək dini siyasiləşdirməyə, ölkədə sabitliyi, əmin-amanlığı pozmağa cəhd göstərmişlər. İslam dinini siyasətə alət etmək nə qədər doğrudur?

Hələ bu az imiş kimi qanunlarımızı heçə sayaraq, cinayət törətmələrinin də şahidi oluruq.

Cinayət əməllərini pərdələyərək, söz və dini etiqad azadlıqlarına görə həbs olunduqlarını dünyaya bəyan etməyə çalışırlar. Əslində, həmin insanlar bu əməlləri ilə İslam dininin, eləcə də dini etiqad azadlığı və tolerantlıq mühitinə görə dünyaya örnək olan ölkəmizi nüfuzdan salmağa çalışan bəzi dairələrə xidmət etmiş olurlar.

Belə şəxslər İslam alimi ola bilərlərmi?!

Torpaqlarımızın bir hissəsinin düşmən işğalında olduğu, hərbi və mülki vətəndaşlarımızın şəhid edildiyi bir dövrdə dövlətimizə, xalqımıza mənəvi dəstək olmaq əvəzinə, onu daxildən sarsıtmaq, əmin-amanlığı pozmaq özlərini dindar, ilahiyyatçı, İslam alimi adlandıran şəxslərə yaraşırmı?

Hazırda bütün müsəlman dünyasında aktuallıq kəsb edən məsələlərdən biri də "İslam alimləri"nin məzhəb təəssübkeşliyi məsələsidir. Belə ki, bəzi şəxslər bütöv İslam dini mövqeyindən deyil, hər hansı məzhəbin, cərəyanın mövqeyindən çıxış edərək, müsəlmanlar arasında ayrı-seçkilik yaradır, hökmlər verir, dinimizin nüfuzunu aşağı salırlar. Məgər İslam məzhəb dinidir?

Əslində isə əsl İslam alimi məzhəbindən asılı olmayaraq məsələlərə obyektiv mövqedən yanaşmalı, həmrəylik mövqeyindən çıxış etməlidir. Əgər belə olarsa, məzhəblər, cərəyanlar arasındakı mövcud qarşıdurmalar, kin, nifrət aradan qalxar.

Doğru olardı ki, istər xaricdə, istərsə də ölkəmizdə dini təhsil almış ilahiyyatçılar, İslam alimləri xarici ölkələrin siyasətinin, məzhəblərin, təriqətlərin təbliğatçısı mövqeyindən çıxış etməyərək, xalqın birliyinə və əmin-amanlığa xidmət etsinlər. Siyasətə qarışmaq əvəzinə, mübahisəli dini mövzuları aydınlaşdırmaq üçün obyektiv tədqiqatlar aparsınlar. Xeyirxah əməlləri, məsləhətləri ilə insanlara nümunə olsunlar.

Bu baxımdan tariximizdə öz savadları, zəka və xeyirxahlıqları ilə iz qoymuş İslam alimlərimizdən örnək götürülməlidir. Belə ki, axund Əbdüssəlam Axundzadə həyatı boyunca müsəlman birliyinə çalışmış, bu istiqamətdə dəyərli əsərlər yazmışdır. Görkəmli İslam alimlərimizdən olan Mirzə Əbu Turab Axundzadə isə daim dünyəvi elmin və maarifin tərəfdarı olmuş, hətta müsəlman qızlarının savadlı, ziyalı olması üçün 1901-ci ildə öz qızını H.Z.Tağıyevin qızlar məktəbinə qoymuş, bir çox müsəlman ailəsinə bu istiqamətdə yol açmışdır. Şeyxülislam Axund Şeyx Möhsüm Həkimzadə həyatı boyuncasülhsevərliyi, əməksevərliyi, dindarların öz vətəndaşlıq borclarını namusla yerinə yetirməsini təbliğ etmişdir.

Gəlin, İslam dəyərlərindən ülvi məqsədlər – yaxşılıq, xeyirxahlıq, birlik, həmrəylik, vətənpərvərlik və digər nəcib əməllər, o cümlədən vicdanlı şəxs, vicdanlı mütəxəssis olmaq üçün istifadə edək!

**Səyavuş Heydərov,**
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsi sədrinin müavini

# Brüsseldə Avropa İttifaqı və Avropa Parlamentinin nümayəndələri ilə görüşlər keçirilib



Avropa İttifaqı (Aİ) ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə layihəsi çərçivəsində Brüsseldə səfərdə olan DQİDK-nın və Azərbaycan Respublikasında fəaliyyət göstərən dini icmaların nümayəndələri sentyabrın 26-da Avropa İttifaqının Xarici siyasət üzrə ali nümayəndəsinin müavini Jan-Kristof Belliard ilə görüşüblər.

Qonaqları səmimiyyətlə salamlayan Belliard Aİ-nin xarici siyasət prioritetlərindən danışıb və birgə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Respublikamızdakı mövcud tolerant və multikultural ənənələrin tarixinin qədim olduğunu və bu gün dövlət siyasətinin tərkib hissəsi kimi daha da gücləndiyini diqqətə çatdıran dini konfessiyaların rəhbərləri ölkəmizdə dini zəmində heç vaxt münaqişənin olmadığını, əksinə, bütün dinlərin nümayəndələri bu torpaqlarda əsrlərdir dinc yanaşı, mehriban şəraitdə yaşadıqlarını vurğulayıblar. Bu səfərdə belə fərqli, rəngarəng tərkibdə təmsil olunmalarının bunun bariz nümunəsi olduğunu deyiblər. Qeyd olunub ki, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olmasına baxmayaraq, dünyəvi Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinə diqqət və qayğı ilə yanaşır.

Daha sonra DQİDK sədrinin müavini Səyavuş Heydərov ölkəmizdəki dini durum barədə danışıb. Bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qurulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətləri modeli bir çox ekspertlər, politoloqlar tərəfindən dinlərarası harmoniyaya ehtiyac duyan dünya üçün nümunə qismində göstərilir. Azərbaycanın son illər dinlər və mədəniyyətlər arası dialoqun mərkəzinə çevrilməsi də məhz bu reallıqdan irəli gəlir. Dövlət başçımızın bu istiqamətdəki təşəbbüslərindən danışan Dövlət Komitəsinin sədr müavini qeyd edib ki, Prezident İlham Əliyevin ölkəmizdə 2016-cı ili "Multikultualizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etməsi müasir dövrün ən çox ehtiyac duyulan birlik və bərabərliyə çağırış mesajıdır.

Həmin gün nümayəndə heyətinin üzvləri Avropa Parlamentinin birinci vitse-prezidenti xanım Mayrid MakGinnes, Avropa Parlamentinin deputatı Səccad Kərim, Avropa Parlamentinin Avropa Xalq Partiyasını təmsil edən deputatları Zelyana Zovko, Gyorgi Holveni və Yan Olbrayt, o cümlədən Aİ-nin Xarici siyasət xidməti strukturunun rəhbərliyində təmsil olunan şəxslər ilə görüşüblər. Görüşlərdə Azərbaycanda olan dini tolerantlıq mühiti və dövlətin bu istiqamətdə yürütdüyü siyasətdən bəhs olunub. Həmçinin dini konfessiyaların nümayəndələri Avropa Parlamentinin deputatları ilə görüşlərdə diqqəti Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğala məruz qalması faktına yönəldərək bildiriblər ki, bu ərazilərdə əsrlərlə tarixə malik müsəlman və xristian dini abidələri məhv edilib. Parlamentarilərin nəzərinə çatdırılıb ki, Ermənistanın aqressiv siyasəti olmasaydı, Brüsselə səfər edən Azərbaycandan olan dini konfessiyaların tərkibində erməni din xadimləri də rahatlıqla iştirak edə bilərdilər.

Görüşlərdə Avropa İttifaqının nümayəndələri Azərbaycanda mövcud olan dini tolerantlıq mühitini yüksək qiymətləndirib və bu cür birgəyaşayış modelinin bir çox dünya ölkələri üçün örnək ola biləcəyini qeyd ediblər.

# "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları"



Sentyabrın 11-də Zərdabda "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda regional seminar-müşavirə keçirilib.

Zərdab Rayon İcra Hakimiyyətinin akt zalında baş tutan müşavirədə Baş Prokurorluq, Daxili İşlər və Ədliyyə nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zərdab, İmişli, Beyləqan, Ağcabədi, Ağdam, Füzuli, Kürdəmir, Laçın və Xocavənd rayonlarının yerli strukturlarının rəhbərləri, bölgənin din xadimləri, dini icma sədrləri, gənclər, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Müşavirədən əvvəl DQİDK-nın sifarişi ilə çəkilmiş, radikalizmə qarşı mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı, maarifləndirici səciyyə daşıyan "Fitnə" sənədli filmi nümayiş olunub.

Filmin nümayişindən sonra tədbiri giriş sözü ilə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev açıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, ölkəmizdə vicdan azadlığının təmin edilməsi, dini icmalara fəaliyyətlərinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilir. O bildirib ki, ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmağa, sabitliyi pozmağa, digər ölkələrin milli xüsusiyyətlərini, dini ideologiyalarını İslam adı altında ölkəmizdə təbliğ etməyə çalışan bəzi cərəyanlarla mübarizə aparılması, gənclərin və yeniyetmələrin zərərli dini cərəyanların təsiri altına düşməsinin qarşısının alınması üçün preventiv tədbirlərin görülməsi Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində əsas fəaliyyət istiqamətlərindəndir.

Daha sonra çıxış edən Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov və Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi Hamlet Hümbətəliyev müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə geniş məlumat veriblər.

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"




Sentyabrın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Gədəbəy Rayon İcra Hakimiyyəti (RİH) ilə birgə "İslam Həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirib.

Tədbirdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Gədəbəy RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Allahverdiyeva, Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Gədəbəy RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Qədir Bağırov, eləcə də ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və rayonun fəal gəncləri iştirak ediblər.

* * *

Bu mövzuda daha bir konfrans sentyabrın 19-da Ağdaşda keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağdaş Rayon İcra Hakimiyyəti (RİH) ilə birgə baş tutan konfransda ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, müəllimlər, şagirdlər, eləcə də rayonun fəal gəncləri iştirak ediblər.

Natiqlər bildiriblər ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin İslam dünyasının həmrəyliyinə verilən böyük önəmin göstəricisidir. Qeyd olunub ki, ölkəmizdə dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənir, eləcə də cəmiyyətimizdə radikalizm meyillərinin qarşısının alınması sahəsində dövlətimiz tərəfindən geniş tədbirlər həyata keçirilir. Bu cür konfransların təşkilində prioritet dini maarifləndirmə yolu ilə radikalizm, məzhəbçilik, dini ayrı-seçkilik kimi amillərə qarşı mübarizə, əhalinin bu yöndə düzgün istiqamətləndirilməsidir.

Hər iki tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "İslam Həmrəyliyi İli: Azərbaycandan çağırış" mövzusunda beynəlxalq konfrans keçirilib




***Sentyabrın 28-də Bakıda V Beynəlxalq Kitab-Sərgi yarmarkası çərçivəsində "İslam Həmrəyliyi İli: Azərbaycandan çağırış" mövzusunda beynəlxalq konfrans keçirilib.***

Prezident İlham Əliyevin 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı Sərəncamına əsasən, İslam dininin maddi və qeyri-maddi irsimizin formalaşmasında rolu, dünyada həmrəyliyin təmin olunmasında əhəmiyyəti, ölkəmizin birgəyaşayış siyasətinin daha dərindən mənimsənilməsi məqsədilə keçirilən konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə baş tutub.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov konfransın əhəmiyyətindən danışıb. Bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi təsadüfi deyil, bu, İslam dünyası üçün bir nümunədir. İslam coğrafiyası dünyanın böyük bir ərazisini təşkil edir. Dünyanın karbohidrogen ehtiyatlarının böyük hissəsi məhz müsəlman ölkələrinin payına düşür, bu cür böyük potensialın olmasına baxmayaraq, İslam dünyası bu gün istər Qərblə, istərsə də dünyanın digər güc mərkəzləri ilə müqayisədə geridə qalıb. Bu gün dünya üzrə ümumi daxili məhsulda müsəlman ölkələrinin payı cəmi iki faizdir. Bütün bunlardan sonra Prezident İlham Əliyevin "İslam Həmrəyliyi İli" çağırışı təkcə dinlə bağlı hesablanmış çağırış deyil. "İslam həmrəyliyi" dedikdə dinlə, məzhəblərarası, dinlərarası münasibətlərlə yanaşı, bütün sferalarda - iqtisadi, sosial, mədəni sahədə müsəlman ölkələrinin əməkdaşlığı, birliyi, həmrəyliyi nəzərdə tutulur. Bu, hətta idmanda da özünü göstərib. Təsadüfi deyil ki, "IV İslam Həmrəyliyi Oyunları" da məhz ölkəmizdə keçirildi. Bundan başqa, müsəlman ölkələrinin üzləşdiyi problemlərdə və ədalətsiz müharibələrdə, haqqı və həqiqəti müdafiə etmək deməkdir. İslam həmrəyliyi həm də digər dinlərlə birgə əməkdaşlığı özündə ehtiva edir.

Qafqaz Müsəlmanlar İdarəsinin şöbə müdiri, Bakı Dövlət Universitetinin kafedra müdiri professor Anar İsgəndərov bildirib ki, "İslam" sözü başqa müsəlman ölkələrindən daha çox bizə doğmadır. Ölkəmiz İslam mədəniyyətinə, elminə böyük töhfələr verib. Əsrlər boyu dünya mədəniyyətinə və elminə misilsiz töhfələr vermiş müsəlmanlar, təəssüf ki, bu gün məzhəb ayrı-seçkiliyi, dini radikalizm, ekstremizm və terror kimi ciddi problemlərlə qarşılaşırlar. Azərbaycan xalqı bu gün də özünün zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, İslam həmrəyliyinə öz töhfələrini verir. "İslam Həmrəyliyi İli"nin məram və məqsədlərini qeyd edən Anar İsgəndərov bu çərçivədə görülən işlərin bütün dünya üçün sülhsevərlik örnəyi olduğunu diqqətə çatdırıb.

Sonra DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov təqdimat ilə çıxış edib. Təqdimatda Azərbaycanın təklif etdiyi İslam həmrəyliyinin mahiyyəti və əhəmiyyəti, bu sahədə ölkəmizin təcrübəsi, eləcə də dünyada baş verən proseslər, İslam dünyasındakı mövcud problemlərin əsas səbəbləri, demoqrafik, iqtisadi və təhsil üzrə göstəricilər öz əksini tapıb. Ölkəmizdə dini konfessiyalar arasında olan mövcud tolerant və birgəyaşayışın bütün dünya ölkələri üçün də bir nümunə olduğu diqqətə çatdırılıb.

Konfrans müzakirələrlə davam etdirilib.



# 21 sentyabr – Beynəlxalq Sülh Günü



*Bütün tarixi dövr ərzində bəşəriyyətin ən çox ehtiyac duyduğu və arzu etdiyi dəyərlərdən biri sülhdür. Məhz bu zərurətdən irəli gələrək hər il 21 sentyabr Beynəlxalq Sülh Günü kimi qeyd edilir. Bu tarix BMT Baş Assambleyasının təşəbbüsü ilə Yer üzündə atəş və zorakılıqdan qlobal imtina günü kimi keçirilir. 2017-ci ilin Beynəlxalq Sülh Gününün devizi "Birlikdə sülh uğruna: hörmət, təhlükəsizlik və hamı üçün ləyaqət"dir.*

*1982-ci ildən qeyd olunmağa başlayan Beynəlxalq Sülh Günü BMT Baş Assambleyasının 1981-ci il 30 noyabr tarixli qərarı ilə təsis edilib. 2015-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT-yə üzv olan 193 ölkənin təmsil olunduğu və müxtəlif ölkə başçılarının iştirak etdiyi sammitdə dayanıqlı inkişafın 17 məqsədi qəbul olunub. 2030-cu ilə qədər ölkələrin bu məqsədlərə çatmaları istiqamətində tədbirlərin görülməsi gündəmdə olan əsas məsələlərdən biridir. Bu tədbirlərin əsasını yoxsulluğun kökünün kəsilməsi, planetin qorunması və ümumi inkişafın təmin olunması təşkil edir.*

*Qeyd edək ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra BMT "Uşaq hüquqları" Konvensiyası, "Uşaqların həyatlarının təminatı, müdafiəsi və inkişafı" haqqında Beynəlxalq deklarasiyası və buna uyğun bir sıra beynəlxalq sənədlərə qoşulub.*

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşəbbüsü ilə hər il 21 avqust-21 sentyabr tarixlərində ölkəmizdə "Beynəlxalq Sülh Günü" aylığı keçirilir. Bu baxımdan ölkəmizdə müxtəlif qurumlar, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən "Beynəlxalq Sülh Günü" aylığı çərçivəsində silsilə tədbirlər təşkil edilir. Bu qəbildən olan tədbirlər:*

**5 sentyabr** – DQİDK və Xəzər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidində "İslam həmrəyliyi – dünyanı sülhə aparan yol" mövzusunda;

**6 sentyabr** - DQİDK-nın Ağcabədi bölgə şöbəsi tərəfindən Tərtər rayonunda "Beynəlxalq Sülh Günü" mövzusunda; Lənkəran rayonu Osakücə kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi müasir dövrün çağırışıdır" layihəsi çərçivəsində Sinovli kəndində "Sülh-birlik, bərabərlik və həmrəylikdir" mövzusunda; DQİDK-



nın Yevlax bölgə şöbəsi tərəfindən Mingəçevir şəhəri "Heydər" məscidində; DQİDK-nin dəstəyi ilə Lerik şəhər "Cümə" məscidində "İslam sülh dinidir" mövzusunda;

**7 sentyabr** - DQİDK-nın Zaqatala bölgə şöbəsi, Balakən rayon Gənclər və İdman İdarəsi və Aktiv Gənclər Klubunun birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi və gənclərin sülhsevərlik missiyası" mövzusunda;

**8 sentyabr** - DQİDK-nın Quba bölgə şöbəsinin, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba regional



mərkəzinin və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Siyəzən rayonu Zarat kənd məscidində "Azərbaycanda sülh və həmrəylik" mövzusunda;

**11 sentyabr** - DQİDK-nın təşkilatçılığı ilə Sumqayıt şəhəri "Cümə" məscidində "Hərb və sülh" mövzusunda;

**12 sentyabr** - DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin, Ombudsmanın Quba Regional Mərkəzinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda sülh və həmrəylik" mövzusunda;

**13 sentyabr** - Göyçay Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Göyçay şəhər "Heydər Əliyev" mərkəzində;

**14 sentyabr** - Ağcabədi rayonu Taxtakörpü qəsəbəsində Laçın Rayon İcra Hakimiyyəti və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə;

**18 sentyabr** - DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xətai Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin Zaqatala-Balakən rayonları üzrə Bölgə Qazılığının birgə təşkilatçılığı ilə;

**20 sentyabr** - Xətai Rayon İcra Hakimiyyəti və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin birgə təşkilatçılığı ilə; Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsi və Şəki (hafizlik) İslam Kollecinin birgə təşəbbüsü ilə "İslam sülh və əmin-amanlıq dinidir" mövzusunda tədbir keçirilib.

# Aşura fəlsəfəsi

Tarixdə elə hadisələr var ki, onu xalqın yaddaşından silmək, əsrlər keçsə də, mümkün olmur. Kərbəla faciəsi də bu qəbildəndir. Çünki o, mahiyyət etibarilə, Ərəbistan yarımadası ilə məhdudlaşan siyasi təlatümün doğurduğu faciəvi nəticə deyildir. Bu, şəhidlik fəlsəfəsi, mübarizlik əzmidir. Elə o səbəbdəndir ki, 1332 ildir hicri təqvimi ilə Məhərrəm ayının onu - Aşura günü bir çox müsəlman ölkələrində İmam Hüseynin (ə) qətlinin ildönümü kimi anılır...

... Məsələ tarixi nöqteyi-nəzərdən araşdırıldıqda ortaya müxtəlif suallar çıxır. Məsələn, nə üçün Kərbəlada İmam Hüseynin (ə) cəmi 72 silahdaşı vardı? Nə üçün yol boyu ona qoşulmaq istəyən minlərlə insana: "Mən hakimiyyət üçün getmirəm, səfərimin məqsədi insanları yaxşılıqlara dəvət etmək və pisliklərdən çəkindirməkdir. Bu yol – şəhadət yoludur", - deyərək, onları qəbul etməmişdir? Nə üçün 18 min imza toplamış və ona sədaqət andı içmiş kufəlilərin səmimi olmadığını, elçisi Müslüm ibn Aqilin Kufədə şəhadətə yetirildiyini bilən İmam (ə), bütün bunlara baxmayaraq, geri dönmədi və Kufəyə doğru yolunu davam etdirdi? Nə üçün o, həccini ümrə ilə əvəz edib Məkkədən çıxdı? Nə üçün ilk olaraq yüzlərlə qaniçən düşmənin üzərinə sevimli oğlu Əliəkbəri (ə) tək göndərdi? Nə üçün altı aylıq körpəsi Əliəsğərin (ə) itkisinin, körpə qızlarının əsir düşməsinin müqabilində yenə də geri çəkilmədi və beyət təklifini qəbul etmədi? Nə üçün yaralanmış cismindən qan axa-axa namaza durdu və namaz əsnasında Şümrün xəncəri boğazına dirənəndə də aman istəmədi? Bu sualların bir cavabı var – Yaradana, Onun göndərdiyi dinə, Qurana sədaqət.

Aşurada hər kəs üçün ibrət vardır. İmam Hüseynin (ə) şəhidlik məktəbinin mahiyyətini, onun fəlsəfəsini düzgün anlayanlar bilir ki, Kərbəla faciəsi İslam tarixində dönüş nöqtəsi olmuşdur. Çünki İmamın (ə) qiyamı dünya malı üçün deyildi, İslam ümmətinin gələcəyi və Allah rizası üçün idi.

"Cənnət gənclərinin ağası" adlandırılan İmam Hüseyn (ə) babası Rəsulullahın (s), atası Əlinin (ə) ona öyrətdikləri yolla getdi və Kərbəlada şəhidlik zirvəsinə çatdı. Yaxın qohumlarının əksəriyyəti şəhid edildi, sağ qalanlar isə əsir götürüldü. Bununla belə, İmam Hüseyn (ə) məğlub olmadı. Əksinə, onun şəhadəti İslam ümmətinin yeni zəfərinə çevrildi, dinimizin mahiyyətinin qorunub saxlanılmasında böyük rol oynadı.

Aşura İmam Hüseynin (ə) şəhadəti ilə əbədiləşmiş tarixi gündür. Onun fəlsəfəsi özünü döyüb şivən qoparmaq, zəncir vurmaq, baş yarmaq, ələmə, qola və başa qara bağlamaq, yaxud toy etməmək, musiqi dinləməmək, televiziya verilişlərinə baxmamaq kimi absurd hərəkətlər deyil. Aşura İslamın yenidən dirçəldiyi, həqiqətin zülm üzərində qələbə qazandığı gündür. Aşura haqqın zalım qarşısında boyun əymədiyi, doğruluq, ədalət, ən əsası isə Allah uğrunda mətinliklə mübarizə aparıldığı gündür – qəhrəmanının ölümüylə ölümsüzləşdiyi gündür: **"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur"** (Ali-İmran 169).

**"Cəmiyyət və Din"**

# İNTELLEKTUAL MÜBARİZƏ: QAN AXITMA, QAN VER, YAŞAT!



Məhərrəm ayı müsəlmanlar üçün təkcə yeni ilin gəlişini xəbər vermir, eyni zamanda İslam tarixinə ən faciəli hadisə qurbanları kimi düşmüş Kərbəla şəhidlərinin növbəti ildönümünün keçirilməsi ilə səciyyələnir. İctimai-siyasi mənşəyi etibarilə bu hadisə İslam mədəniyyətinə, onun adət-ənənələrinə təsiri ilə yanaşı, müxtəlif ideoloji istiqamətlərin formalaşmasına təkan vermişdir. Bu baxımdan Kərbəla faciəsi nəsillərin yaddaşında yaşayır, İmam Hüseynin (ə) həyat və mübarizəsi hər il yad edilir.

Əslində, Kərbəla faciəsinin xatırlanması bədbinlik əhval-ruhiyyəsinin təlqini olmayıb, torpağa bağlılığı, fədakarlığı, dəyanətə çağırışı, vətənpərvərlik ruhunun yüksəldilməsini təcəssüm etdirməlidir. Çünki İslam dinində ədalət uğrunda mübarizədə şəhidlik məqamına yüksəlmək daim İmam Hüseynin (ə) adı ilə anılmışdır.

Heç şübhəsiz, həmin dövrdə Əhli-beytə zülm edilmişdir. Sözsüz ki, baş vermiş bu faciə həqiqi müsəlman olan hər kəsi kədərləndirməyə bilməz. Bu faciəni ananların ülvi duyğularına hörmət göstərilməli, ancaq əsas qayə sayılan Allah unudulmamalıdır. Əhli-beyt sevgisi, duyğular, hisslər öz yerində, amma dinin əsas prinsiplərini qorumaq dindarların bilavasitə üzərinə düşən məsuliyyətdir. İmam Hüseynə (ə) məhəbbət nə qədər gözəldirsə, Allah sevgisi, rizası daha uca və riayət edilməyə daha çox layiqdir.

Allah-Təala müqəddəs Quran-Kərim vasitəsilə insanın özünə xəsarət yetirməsini haram buyurmuşdur. Bu səbəbdən zəncir vurmaq, bədənə xəsarət yetirmək doğru deyil və günah əməl sayılır.

Təəssüflə vurğulanmalıdır ki, Kərbəla hadisəsinin əsl mahiyyəti müasir dövrdə də bəzən düzgün dərk edilmir. Bəzi insanlar hesab edirlər ki, bu günün əsas məqsədi ağlayaraq savab qazanmaq və günahlardan təmizlənməkdir. Bəzilərinin fikrincə isə həmin gün insanlar ağlamağa məcbur edilməli, qara bayraqlarla küçə yürüşləri keçirilməlidir. Onlara görə, şəriətə uyğun olmayan bu hərəkətlər Məhərrəmlikdə halal mahiyyət qazanır və insan göz yaşı axıtmaqla mənəvi cəhətdən paklanır. Əslində, Məhərrəmlik məclislərinə sahiblik edənlər vaizlərdən insanları ağladaraq vəcdə gətirməyi tələb etməməlidirlər. Bəzən vaizlər də öz üzərilərinə diqqət cəlb etmək, insanların özlərini döyməklə fəryad etməsinə nail olmaq məqsədilə uydurma hekayələr danışırlar.

Aşura mərasimləri məscidlərdə, ibadət ocaqlarında ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməli, təziyə məclislərində Kərbəla şəhidlərinin şəninə xütbələr oxunmalıdır. Müqəddəs məkanlarda nizam-intizam gözlənilməli, sinə açmaq, saç yolmaq, zəncir vurmaqla qan çıxarmaq kimi qınağa səbəb hərəkətlərə yol verilməməlidir. Qan çıxarmağı zəruri hesab edən dindarlara tövsiyə olunur ki, könüllü qanvermə aksiyalarına qoşulsunlar. Bununla Allah qarşısında böyük savab qazanmaqla yanaşı, qan çatışmazlığından əziyyət çəkən minlərlə insanın müalicəsinə yardım etmiş olarlar.

Bir sözlə, Məhərrəmlik və Aşura məclislərində əsas məqsəd Kərbəla faciəsinin fəlsəfi mənasını maarifləndirmə ilə izah etmək olmalıdır. Yasın əsas missiyası insanları çox ağlatmaq deyil, bu hadisə ilə əlaqədar daha çox mətləblərə aydınlıq gətirməkdir.

Bu məsələlərə ziyalılar da qəti münasibət bildirsələr, daha yaxşı olar. Onlar Məhərrəmliyin mahiyyətinin xalqa intellektual səviyyədə çatdırılmasına dəstək olub, dini fanatizmə, mövhumat və cəhalətə xidmət edən ünsürləri ciddi tənqid etməlidirlər. Cəmiyyətin ziyalı təbəqəsi və açıq fikirli din xadimlərinin İmam Hüseyn (ə) təziyəsini gəlir mənbəyinə çevirib, din pərdəsi altında mövhumat yayanlarla intellektual müstəvidə mübarizə aparması dövrün zərurətinə çevrilib desək, yanılmarıq.

**"Cəmiyyət və Din"**

# Əfsanəvi şəhər - Kasablanka

Atlantik okeanının sahillərində yerləşən səs-küylü və kosmopolit şəhər sayılan Kasablanka Mərakeşin ən böyük şəhəri və limanı olmaqla yanaşı, Şimali Afrikanın aparıcı ticarət, sənaye və banklar mərkəzi, həmçinin Qahirədən sonra qitənin ikinci ən böyük şəhəridir.

VII-VIII əsrlərdə indiki Kasablankanın yerində bərbərlərin Anfa adlı kiçik yaşayış məntəqəsi yerləşirdi. Sonralar həmin məntəqə zəngin ticarət şəhərinə çevrildi. Daha sonrakı dövrlərdə isə Anfada özlərinə sığınacaq tapan piratlar limana yaxınlaşan Avropa ticarət gəmilərinə qəfil hücumlar təşkil etməyə başladılar. XV əsrin ortalarında onların özbaşınalığı elə həddə çatdı ki, hamıdan daha çox hücumlara məruz qalan portuqaliyalılar birdəfəlik buna son vermək qərarına gəldilər. Bu məqsədlə 1468-ci ildə Anfaya basqın edərək şəhəri bütünlüklə yandırdılar.

Bir müddət sonra piratlar fəaliyyətlərini yenidən bərpa etdilər. Ona görə də portuqaliyalılar 1515-ci ildə şəhərə yenidən hərbi ekspedisiya yollayaraq koloniya və müdafiə istehkamı tikdilər. Onlar Anfanın ərazisində salınmış yeni yaşayış məskənini "Kaza Branka" (Ağ ev) adlandırdılar. Şəhərin mərkəzində yerləşən ağ tikili səyyahlar üçün mayak rolunu oynadığından onu belə adlandırmışlar.

1755-ci ildə baş verən zəlzələ şəhərdə daşı daş üstündə qoymadı. Portuqaliyalılar isə sultan Məhəmməd ibn Abdullahın hərbi qüvvələrinin təzyiqlərinə dözməyərək şəhəri tərk etməli oldular. Nəticədə Kasablanka uzun müddət tənəzzül dövrü yaşadı, ta ki, fransızlar burada quruculuq işləri görüb, geniş bulvarlar, ictimai parklar salıb, mavritan üslubunda binalar tikənədək.



Bu gün Kasablankanı, o cümlədən Mərakeşi dünyada tanıdan əsas abidə II Həsən məscididir. Tikili dünyada Məkkədən sonra ikinci ən böyük məscid sayılır. Atlantik okeanının sahillərində yerləşən məscidin 25 min nəfərlik nəhəng şüşə zalından okeana heyrətamiz mənzərə açılır. Daha 80 min nəfər isə məscidə bitişik olan meydanda eyni anda ibadət edə bilər. Məscidin ümumi ərazisi 9 hektardır, minarəsinin hündürlüyü 210 metrdir. Bu, dünyadakı ən hündür dini abidə sayılır.

Məscidin inşasına Mərakeş kralı II Həsənin hakimiyyəti illərində (1986-1989) başlanılmışdır, lakin məscid 1993-cü ilin avqustuna qədər qapalı qalmışdır. Toplanılan ianələr hesabına tikilinin ümumi dəyəri 800 milyon olmuşdur. İşə 2500 inşaat işçisi, 10 min rəssam və digər tərtibat işçiləri cəlb olunmuşdu. Tikinti üçün bütün inşaat materialları Mərakeşin regionlarından gətirilmişdi. Yalnız sütunların inşasında istifadə olunan ağ qranit və 50 tonluq şüşə çilçıraq İtaliyadan idi. Məscidin dizaynını fransız memar Mişel Pinso vermişdir.

Tikinti zamanı binanın hava şəraitinə dözümlü olması üçün texnoloji yeniliklər tətbiq olunmuşdur. Minarənin yuxarı hissəsində yerləşən lazer projektorundan səmaya Məkkədəki Məscidül-Haram istiqamətində 30 km uzunluğunda yaşıl işıq uzanır.

II Həsən məscidi Mərakeşdə qeyri-müsəlmanların girişinə də icazə verilən nadir dini tikililərdən biridir. 100 dirhəm (təxminən 10 dollar) qarşılığında istəyən hər kəs məscidə daxil ola və bu möhtəşəm tikilinin fotosunu çəkə bilər.

**Hazırladı: Güney Namazova**

# QISA-QISA



**14 sentyabr** - 10 saylı cəzaçəkmə müəssisəsində Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi zamanın çağırışıdır" mövzusunda; 4 saylı qadın cəzaçəkmə müəssisəsində isə "İslam həmrəyliyində qadının rolu" mövzusunda tədbir keçirilib.

Tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə İşinin Təşkili İdarəsinin məsul əməkdaşı Süleyman Salayev, DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, ilahiyyatçı Hacı Şahin Həsənli, DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin əməkdaşı Zeynəb Tayıbova, BDU-nun İlahiyyat fakültəsinin aparıcı elmi işçisi Yeganə Mirzəyeva, Penitensiar xidmətin əməkdaşları Gülgün Kərimova və Sevda Zamanova iştirak ediblər.

**17 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə Lənkəran şəhər Ə.Vahid küçəsi "Cümə" məscidində Məhərrəmlik ayına həsr edilmiş tədbir baş tutub.

Tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Asif İmanlı, QMİ-nin qazısı Qəni Axundzadə, dini icma sədrləri və din xadimləri iştirak ediblər.



**18 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Boradigah qəsəbəsində "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, şöbənin əməkdaşları Ayıq Səmədov, Kamil Bağırov, Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşı Vüqar İmamquliyev, Masallı Rayon Gənclər və İdman İdarəsinin rəisi Camal Manafov, müəllimlər və şagirdlər iştirak ediblər.

**18 sentyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik Rayon İcra Hakimiyyəti və "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Lerik şəhər Heydər Əliyev mərkəzində "İslam sivilizasiyasının, dövlət-din münasibətlərinin Azərbaycan modelinin region gəncləri arasında təbliği" mövzusunda tədbir təşkil olunub.

Tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı Azər Həsənov, Lerik RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Rafiq Əzizov, Lerik Şəhər Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov, Lerik Şəhər Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov və TUMİB-in nümayəndələri iştirak ediblər.

**19 sentyabr** - DQİDK-nın və Cəlilabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Milli Qəhrəman Vüqar Mürsəlov adına Göytəpə şəhər 1 saylı tam orta məktəbində "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, şöbənin əməkdaşı Tural Şahmarov, Komitənin Dini qurumlarla İş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşı Vüqar İmamquliyev, Cəlilabad Rayon İcra Hakimiyyəti (RİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Loğman Hüseynov, RİH başçısının Göytəpə şəhəri üzrə nümayəndəsi Fuad Əzizov, Cəlilabad Rayon Polis Şöbəsinin sahə müvəkkili, polis mayoru Vahid Məmmədov və ictimaiyyət nümayəndələri iştirak ediblər.



**19 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsi, Astara RİH və Qafqaz Müsəlmanları İdarəsinin Astara rayonu üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə Astara şəhəri Mərkəzi kitabxanasında Məhərrəmlik ayına həsr olunmuş tədbir təşkil edilib.

Tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı Turan Həsənzadə, Astara RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev, QMİ-nin Astara rayonu üzrə səlahiyyətli nümayəndəsi İlqar Həsənov, dini icma sədrləri, din xadimləri iştirak ediblər.

**19 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qobustan rayonu Poladlı kəndində "İslam həmrəyliyi din və məzhəb ayrıseçkiliyinə qarşı" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, şöbənin əməkdaşı Cavid Əhmədov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev, Rayon İcra Hakimiyyəti (RİH) başçısının Poladlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Qəhrəman Qəhrəmanov, Rayon Dövlət Arxivinin müdiri Teymur Ağayev, bələdiyyə sədri Tarverdi Astanov, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak edib.

**20 sentyabr** - DQİDK-nın və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşı Vüqar İmamquliyev, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Azər Sadıqov, Salyan Rayon İcra Hakimiyyəti (RİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Aqşin Babayev, Salyan RİH başçısının Xıdırlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Elçin Nəzirov, Xıdırlı kənd məscidi dini icmasının sədri Bulud Abdulrahmanov və ictimaiyyət nümayəndələri iştirak ediblər.



**20 sentyabr** - Göyçay RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin Göyçay-Ucar rayonları üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə Göyçay şəhər "Əbülfəzlil Abbas" məscidində Məhərrəm ayının başlaması ilə əlaqədar tədbir baş tutub.

Tədbirdə Göyçay RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zivər Zeynalova, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev və şöbənin əməkdaşı Rauf Nəsirov, Göyçay RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüsal Zöhrabov, QMİ-nin Göyçay-Ucar rayonları üzrə səlahiyyətli nümayəndələri Rəsul Kazımov və Cavid Səfərov, dini icma sədrləri və din xadimləri iştirak ediblər.

**20 sentyabr** - İsmayıllı şəhər Eldar Məmmədov adına 3 nömrəli məktəb-liseydə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin və İsmayıllı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Cəmiyyətimizin sağlamlığı naminə narkomaniyaya qarşı birgə mübarizənin vacibliyi" mövzusunda tədbir baş tutub.

Tədbirdə İsmayıllı Rayon İcra Hakimiyyəti (RİH) başçısının I müavini Rövşən Ağayev, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Mehdiyev, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İsmayıllı rayon şöbəsinin əməkdaşı Camal İsayev, Rayon Polis Şöbəsinin (RPŞ) yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun baş inspektoru Rahim Orucov, məktəb-liseyin direktoru Əhmədağa Ələkbərov, müəllimlər və şagirdlər iştirak ediblər.



**21 sentyabr** - Kürdəmir RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə Kürdəmir şəhər "İmam Rza" məscidində Məhərrəm ayının başlaması ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə Kürdəmir RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev və şöbənin əməkdaşı Rauf Nəsirov, QMİ-nin Kürdəmir rayonu üzrə səlahiyyətli nümayəndəsi Füzuli Cəfərov, Rayon Polis

davamı səh. 12

əvvəli səh. 11

Şöbəsinin əməkdaşı Asif Əhmədov, Dövlət Təhlükəsizliyi Xidmətinin Kürdəmir Rayon İdarəsinin əməkdaşı Seymur Müslümov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

**22 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə İsmayıllı rayonu Diyallı kəndində "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbirdə İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının I müavini Rövşən Ağayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Mehdiyev, Diyallı kənd məscidi dini icmasının üzvləri, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

**22 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsinin və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Çaxırlı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə apardığı siyasətin, həmçinin ideoloji və dini maarifləndirmə işinin təbliği ilə əlaqədar tədbir baş tutub.

Tədbirdə Masallı RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Kamil Bağırov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

**26 sentyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhəri Akademik Zərifə Əliyeva adına liseydə yuxarı sinif şagirdləri və müəllimlər üçün "Din, təhsil və dünyəvilik" mövzusunda tədbir təşkil olunub.

Tədbirdə Zaqatala RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı İlqar Vəliyev, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov, liseyin direktoru Kəmalə Əhmədova çıxış ediblər.

**26 sentyabr** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Şamaxı bölgəsi üzrə şöbəsinin və İsmayıllı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam Həmrəyliyi İli" çərçivəsində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, İsmayıllı RİH başçısının birinci müavini, dini işlər komissiyasının sədri Rövşən Ağayev, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri, başçının müavini Sevil Əhmədova, QMİ-nin İsmayıllı rayonu üzrə nümayəndəsi Şahzadə Bilalov, ümumtəhsil məktəbləri direktorlarının müavinləri, uşaq təşkilatlarının rəhbərləri, ağsaqqallar, dini icma sədrləri, mədəniyyət, səhiyyə və təhsil işçiləri iştirak ediblər.

**27 sentyabr** - Masallı şəhəri Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində Masallı Rayon İcra Hakimiyyəti (RİH) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Masallı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Məhərrəmlik mərasimlərinin təşkili və Aşura günü qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.

Müşavirədə Masallı RİH-in başçısı Rafil Hüseynov, DQİDK-nın Masallı bölgəsi üzrə şöbə müdiri Miryəhya Bədirov, Qafqaz Müsəlmanları İdarəsinin Cənub bölgəsi üzrə qazısı Mirqiyas Təhməzov, idarə və təşkilatların, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, dini icma sədrləri, din xadimləri, ağsaqqallar, yerli ərazi nümayəndələri və bələdiyyə sədrləri iştirak ediblər.

Tədbirlərdə çıxış edən natiqlər bu cür toplantıların əhəmiyyətini vurğulayaraq əsas məqsədin gəncləri dini radikal qrupların təsirindən qorumaq olduğunu diqqətə çatdıraraq, ölkəmizdə tarix boyu mövcud olan dini dözümlülüyündən, tolerant və multikultural həyat tərzindən, dini radikalizmə və ekstremizmə qarşı keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söz açıblar. Bildirilib ki, dini radikalizmin yaranma səbəblərindən biri də məzhəb ayrı-seçkiliyidir. İslam isə məzhəb ayrı-seçkiliyinə qarşıdır və müqəddəs Qurani-Kərimdə də müsəlmanların vəhdətdə olmasının vacibliyi buyurulur. Bu baxımdan gəncləri dini radikal qrupların təsirindən uzaq tutmaq üçün onlara İslam dini düzgün şəkildə, olduğu kimi çatdırılmalıdır.

Dini radikalizmə qarşı mübarizədən bəhs edən çıxışçılar qeyd ediblər ki, gənclərin dini radikal qrupların təsiri altına düşməməsi üçün müvafiq dövlət qurumları ilə yanaşı, valideynlərin, ziyalıların, din xadimlərinin, bütövlükdə cəmiyyətin üzərinə böyük məsuliyyət düşür.

Həmçinin, Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasının önəmindən danışan natiqlər bildiriblər ki, İslam dünyasının imicinin bərpasında, birliyinin təmin olunmasında, bu coğrafiyada yerləşən dövlətlər arasında dostluq, əməkdaşlıq münasibətlərinin yüksək səviyyəyə çatdırılmasında İslam həmrəyliyinin böyük əhəmiyyəti var.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# MƏHƏRRƏMLİK: KƏDƏRİ NECƏ İFADƏ ETMƏLİ?

***"...(Ey Peyğəmbər!) De: Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm..."*** (Əş-Şura, 23)

Müxtəlif mənbələrdə bir-birinə yaxın məzmunda nəql olunmuş ən məşhur hadislərin birində Rəsulullah (s) buyurmuşdur: *"Mən sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm: Allahın kitabını və Əhli-beytimi! Nə qədər ki, onlara sarılacaqsınız, əsla yolunuzu azmazsınız....".* Lakin 680-ci ildə İslam Peyğəmbərinin (s) müsəlmanlara əmanət kimi qoyduğu sevimli nəvəsi faciəli şəkildə şəhid edilmişdir.

Həmin tarixdən bugünədək müsəlmanlar İmam Hüseyn (ə) və onunla birlikdə Kərbəlada şəhid olmuş şəxslərin xatirəsini yad edərək amallarını yaşatmaq məqsədilə müxtəlif mərasimlər keçirirlər. Məhərrəm ayında baş verən hadisələri anma mərasimi dünyanın bir çox yerində olduğu kimi, Azərbaycanda da keçirilir. Hətta, SSRİ dövründə ateist dövlətin bütün səy və təzyiqlərinə baxmayaraq, bu mərasimlər keçirilmiş və Azərbaycan xalqı tərəfindən İmam Hüseyn (ə), ailəsi və onun sadiq səhabələrinin xatirəsi əziz tutulmuşdur.

Öncə qeyd edilməlidir ki, Məhərrəmlik mərasimləri ancaq matəm məqsədilə keçirilmir və ya ən azı sırf bu məqsədlə keçirilməməlidir. Çünki tarixə nəzər saldıqda görürük ki, Kərbəla hadisəsindən sonra İmam Səccad (ə) və İmam Hüseynin (ə) bacısı Xanım Zeynəb (s) Kərbəlada baş vermiş faciənin canlı şahidləri olmalarına baxmayaraq keçirilən müxtəlif mərasimlərdə şəhid edilənlərə matəm tutub acımaqdan çox onların yol və məqsədlərini açıqlamaqla məşğul olmuş, insanlara hadisənin mahiyyətini bəyan etmişlər. Bu, müasirlərimiz və gələcək nəsillər üçün çox gözəl örnəkdir. Düzdür, həmin mərasimlərin keçirilməsinin tarixi kökünün bir tərəfində qətl və faciə dayandığı üçün onlar matəm kimi xatırlanır. Amma Kərbəla hadisəsinin tarixini araşdırarkən görürük ki, bu hadisənin bir qütbündə qətl və cinayət durursa, digər qütbündə şücaət, qəhrəmanlıq, fədakarlıq, İslamın uca dəyərləri və bu dəyərlər uğrunda mübarizə dayanır. Elə bu səbəbdən də hər il Məhərrəmlik mərasimlərinin keçirilməsi əslində İmam Hüseynin (ə) uğrunda mübarizə apardığı dəyərlərin xatırladılaraq yaşadılması və onların insanlara çatdırılması məqsədini daşımalıdır. Tarix boyu imamların bu hadisənin yaşadılmasına təkid etmələrinin səbəbi də, əslində belə olmuşdur.



Kərbəlada baş verən faciəyə və ona olan müasir ehtiram münasibətilə keçirilən mərasimlərin mahiyyətinə yanaşma da müxtəlifdir. Lakin həqiqət ondan ibarətdir ki, Kərbəlada qətlə yetirilənlər şəhid olublar. Şəhid təbii ki, Allah dərgahında ən yüksək məqama malikdir. Belə olan halda onlar üçün matəm mərasimlərinin keçirilməsi zamanı özünü döyməyin, zəncir vurub, baş yarmağın mənası nədir? Və yaxud, İmam Hüseyn eşqinə zəncir vurmağı, baş yarmağı, özünü döyməyi "savab" kimi qələmə verib, sadə müsəlmanları əslində günaha batıran, bütün bunları kədərin ifadə edilməsi kimi qələmə verən bəziləri görəsən, özləri bu "savab"ı yerinə yetirirlərmi? İmam Hüseyn (ə) Kərbəlada döyüşə getməzdən öncə bacısı Zeynəbə dediklərini biz müsəlmanlar nə tez yaddan çıxardıq? Xatırladaq ki, İmam bacısına şəhid olacağını xəbər vermiş, lakin ona ağlayıb, göz yaşı tökməyi, saçını yolaraq fəryad qoparmağı qadağan etmişdir.

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası adından yayılmış fətvada da bu nüanslara diqqət çəkilir. Fətvada qeyd edilir ki, Məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun, onun amallarına yaraşan tərzdə keçirilməlidir. Mövcud qanunvericiliyə əsasən, əza məclisləri məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə keçirilməli və ictimai asayişə mane olmamalıdır. İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlər yalnız müvafiq dövlət qurumlarının icazəsi əsasında təşkil oluna bilər. Əzadarlar dinimizin təyin etdiyi əxlaqi çərçivələrə riayət etməlidirlər. Belə ki, qurşağadək soyunub zəncir və sinə vurmaqla bədənə xəsarət yetirmək, qan çıxarmaq müqəddəs şəriətimizə və İslam əxlaqına uyğun deyil. Allah rizayəti üçün İmam Hüseynə (ə) məhəbbətini izhar etmək istəyənlər bu tövsiyələrə əməl etməlidirlər.

O da doğrudur ki, Kərbəlada baş verən hadisələrin xatırlanması hər müsəlmanın qəlbini riqqətə gətirir. Hamımız məyus oluruq. İmam Hüseyn (ə) şəhid ediləcəyini bilə-bilə Kufəyə getmək qərarını vermişdi. Məhəmməd peyğəmbər (s) isə hələ İmam Hüseyn (ə) kiçik yaşlarındaykən ilahi vəhyə əsaslanaraq onun şəhid ediləcəyini demişdi. Məhz bu baxımdan, onun alın yazısı ədalət uğrunda mübarizədə şəhid olmaqdan keçirdi. Lakin Kərbəlada baş verən faciənin göz önünə gətirilməsi və İslam dinini bəşəriyyətə tanıdan Peyğəmbərin övladlarının özünü "müsəlman" adlandıranlar tərəfindən qəddarcasına qətl edilməsi, meyitlər üzərində işgəncələr günümüzdə baş verənləri də xatırladır. İslamı yanlış anlayanların törətdikləri cinayətlər bu gün də davam edir.

Ədalət uğrunda mübarizədə şəhid olmaq qüruru bizlərdən uzaq deyil. Azərbaycan xalqı öz şanlı tarixində bunu çoxdan sübut edib. Bizim tariximizdə həmişə Yezidlər olub, lakin onlara qarşı savaşan İmam Hüseynlərimiz də kifayət qədərdir. Əhli-beyt nümayəndəsi olan Seyid Mübariz, Fərid, Əhməd, Aprel döyüşlərində canlarını mübarək Vətən uğrunda fəda edənlər və neçə-neçə qəlbində Vətən sevgisi olan qəhrəmanlarımız bu günümüzün İmam Hüseynləridir.

Hər il olduğu kimi yenidən Məhərrəmlik mərasimlərini qeyd edirik. Torpaqlarımızın düşmən tapdağında inlədiyi bir vaxtda, dünyada dini zəmində baş verən hadisələrin, ekstremizmin, radikalizmin, islamafobiyanın yayılması fonunda İmam Hüseynin (ə) şəhidlik məktəbinə hörmətlə yanaşan hər azərbaycanlı dərindən düşünməlidir: bizə əxlaqdan kənar şəkildə soyunaraq özümüzü döyüb, başımızı yarıb, qanımızı axıdaraq bəzi radikal kəsimlərin bundan istifadə edərək həm etiqadımızı, həm də dinimizi gözdən salmasına fürsət verməmi gərəkdir, ya bizi bir bütün kimi saxlamalı olan həqiqi İslam dəyərlərini qorumaq üçün özünü bu yola qurban verən İmam Hüseyn və silahdaşlarından örnək almaqmı? Təbii ki, ikincini seçməliyik, çünki İmam Hüseynin (ə) şəhidlik fəlsəfəsinin mahiyyəti və istədiyi də bu idi. Bu fürsətdən istifadə edib Azərbaycanımızda hər zaman birləşdirici faktor olan Əhli-Beyt sevgisini tərənnüm edib din və insaniyyət qardaşlığımızı qorumalıyıq.

**Nahid MƏMMƏDOV**

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin avqust ayı ərzində müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maarif-*



*lənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*

**5 sentyabr** - Masallı rayonu Eminli kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi radikalizm və terrorizmə qarşıdır" mövzusunda; Ağsu şəhər "Nuran Xatun" məscidi dini icması tərəfindən "İslamda tolerantlıq və vəhdət" mövzusunda;

**6 sentyabr** - Əhmədbəyli kənd orta məktəbində Samux şəhəri müsəlmanlarının dini icması tərəfindən "Dini ekstremizmin qarşısının alınmasında İslam həmrəyliyinin rolu" mövzusunda; Masallı rayonu Sığıncaq kənd məscidi dini icması tərəfindən "İslam dini terrora qarşıdır" mövzusunda; Goranboy rayonu Xanqərvənd kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda; Qobustan rayonu Təklə Mirzəbaba kənd məscidi dini icması tərəfindən "İslamda tolerantlıq və vəhdət" mövzusunda; Yevlax rayon Yenicə kənd məscidi dini icması tərəfindən "Dini radikalizm və ekstremizmin yaranma, yayılma metodlarına qarşı mübarizə" mövzusunda;

**7 sentyabr** - Lənkəran rayonu Bəlləbur kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində; Şamaxı rayonu Mədrəsə qəsəbə məscidi dini icması tərəfindən "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda;

**8 sentyabr** - Masallı rayonu Kubin kənd məscidi dini icması tərəfindən "İslamda Vətən sevgisi" mövzusunda; Lənkəran rayonu Balıqçılar qəsəbə "Xanım



Zəhra" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülhə töhfə kimi" mövzusunda; Astara rayonu Kijəbə qəsəbə məscidi dini icması tərəfindən "İslam sülh, həmrəylik və birlik dinidir" mövzusunda; Cəlilabad rayonu Zərbiəlli kəndi "İmam Hüseyn" məscidi dini icması tərəfindən "Dinimiz zərərli vərdişlərə "yox" deyir" mövzusunda; Lerik rayonu Lərmərüd kənd məscidi dini icması tərəfindən "İslam sülhə və həmrəyliyə aparan yoldur" layihəsi çərçivəsində; Şamaxı rayonu Adnalı kənd məscidi dini icması tərəfindən "Radikalizm və onun fəsadları" mövzusunda; Şəki rayon Kiçik Dəhnə kənd məscidi dini icması tərəfindən "Cəmiyyətimizi dini-radikal təsirlərdən qoruyaq" layihəsi çərçivəsində;

**9 sentyabr** - İsmayıllı rayonu Topçu kənd məscidi dini icması tərəfindən "Radikalizm və onun fəsadları" mövzusunda;

**10 sentyabr** - Abşeron rayonu Güzdək qəsəbəsi "Rəsulullah" məscidi dini icması tərəfindən "Dini radikalizmin cəmiyyətimiz üçün zərərləri" mövzusunda;

**11 sentyabr** - Zaqatala rayonu Üçüncü Tala kənd məscidi dini icması tərəfindən "Birlik, bərabərlik və həmrəylik kimi dəyərlərin İslam dinində yeri" mövzusunda;

**12 sentyabr** - Sumqayıt şəhər Cümə məscidi dini icamsı tərəfindən "Azərbaycan dinlərarası tolerantlığın məkanı kimi" mövzusunda; Ağdaş rayon Aşağı Nemətabad məscidi dini icması tərəfindən "Quranda dini plüralizm" mövzusunda; İmişli rayon Xoşçobanlı kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda; Salyan rayonu "Xurşud" kənd məscidi dini icması tərəfindən "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində; Lənkəran rayonu Bəlləbur kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülh və birliyə töhfə kimi" layihəsi çərçivəsində; Astara rayon Şiyəkəran kəndində Astara şəhəri "Qum" məscidi dini icması tərəfindən "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində; Lerik rayonu Ləmərüd kənd məscidi dini icması tərəfindən "İslam sülhə və həmrəyliyə aparan yoldur" layihəsi çərçivəsində;

**13 sentyabr** - Ağdaş rayon Qəribli kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi və onun verdiyi töhfələr" mövzusunda; Şəki rayonu Aydınbulaq kənd "Hacı Mir Ələkbərağa" məscidi dini icması tərəfindən "İslam dini sülh, həmrəylik və vəhdət dinidir" layihəsi



çərçivəsində; Ağstafa şəhəri "İmam Əli" adına Cümə məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda;

**14 sentyabr** - Lənkəran rayonu Qurumba kənd məscidi dini icması tərəfindən "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində; Neftçala şəhəri "Sahib-əzzaman" məscidi dini icması tərəfindən "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; Ağcabədi rayon "Seyid Mürsəl Ağa" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Gədəbəy rayonu "Cümə" məscidi dini icması tərəfindən "Milli-mənəvi dəyərlərimiz və milli kimliyimiz" mövzusunda;

**15 sentyabr** - Yevlax rayon Yenicə kənd məscidi dini icması tərəfindən "Dini radikalizm və onunla mübarizə üsulları" mövzusunda; Binəqədi rayonu Binəqədi qəsəbəsi "Came" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülh və bəşəri dəyərlərə sadiqlik simvoludur" layihəsi çərçivəsində;

**18 sentyabr** - Qaradağ rayonu Lökbatan qəsəbə məscidi dini icması tərəfindən "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində;

**19 sentyabr** - Masallı rayonu Ağakişibəyli kəndi "Şeyx Həsən" məscidi dini icması tərəfindən "Dövlətdin münasibətlərinin formalaşmasında dini icmaların rolu" mövzusunda; İmişli rayonu Şahverdili kənd şəhid Fikrət Cəbrayılov adına tam orta məktəbdə Şahverdili kənd "Əhli-beyt" məscidi dini icması tərəfindən "Vətənpərvərlik milli-mənəvi dəyərlərimizin ən önəmli tərkib hissəsidir" mövzusunda; Şəki rayon Suçma kənd tam orta məktəbində Suçma kənd məscidi dini icması tərəfindən "İslam dinində mövhumata və xurafata yer yoxdur" layihəsi çərçivəsində; Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" layihəsi çərçivəsində; Ağcabədi rayonu Muğanlı kənd "Seyid İsmayıl Ağa" məscidi dini icması "İslam həmrəyliyi dövrün tələbidir" layihəsi çərçivəsində;

**20 sentyabr** - Yevlax rayon Yenicə kənd məscidi dini icması tərəfindən "İslam dini dostluq dinidir" mövzusunda; Masallı rayonu Kubin kənd məscidi dini icması tərəfindən "Dinimizdə qardaşlıq və sülh prinsip-



ləri" mövzusunda; Astara rayonu Kijəbə qəsəbə məscidi dini icması tərəfindən Lovayın kəndində "İslam həmrəyliyi məzhəb ayrıseçkiliyinə qarşı" layihəsi çərçivəsində; Şabran rayonu Dağbilici kənd məscidi dini icması tərəfindən "Milli-mənəvi və dini dəyərlərin qorunmasında birgə yaşayışın və həmrəyliyin rolu" layihəsi çərçivəsində; Zaqatala rayonu Üçüncü Tala kənd məscidi dini icması tərəfindən "Milli-mənəvi dəyərlərimizin gənclər arasında təbliğinin əhəmiyyəti" mövzusunda; Sumqayıt şəhəri Kotec qəsəbəsi "İmam Sadiq" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi müasir dövrün tələbidir" layihəsi çərçivəsində; Xəzər rayonu Türkan qəsəbəsi "Türkan bağları" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülh və birlik nümunəsidir" layihəsi çərçivəsində; Göyçay rayonu Yalman kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi və sosial ədalət" layihəsi çərçivəsində; Qəbələ rayonu Hacıalılı kənd məscidi dini icması tərəfindən "Dini və milli müxtəlifliyin vəhdətində İslam həmrəyliyinin rolu" layihəsi çərçivəsində;

**21 sentyabr** - Şəki rayonu Aydınbulaq kənd "Hacı Mir Ələkbərağa" məscidi dini icması tərəfindən "İslam dini sülh, həmrəylik və vəhdət dinidir" layihəsi çərçivəsində; Balakən rayonu Kortala kənd məscidi dini icması tərəfindən "İslam dinində vətən sevgisi və şəhidlik" layihəsi çərçivəsində;

**22 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Güzdək qəsəbəsi tam orta məktəbində Abşeron rayonu Güzdək qəsəbəsi "Rəsulullah"



məscidi dini icması tərəfindən "Sağlam cəmiyyətin formalaşmasında İslam həmrəyliyininrolu" mövzusunda; Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə Göyçay rayonu Yeniarx kənd məscidi dini icması tərəfindən "Müsəlman intibahının bərqərarı - İslam Həmrəyliyi" layihəsi çərçivəsində;

**23 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə Balakən rayonu Katex kənd məscidi dini icması tərəfindən "Xurafat dini savadsızlığın ilkin fəsadıdır" mövzusunda;

**25 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə Göyçay rayonu Çərəcə kənd məscidi dini icmasının "İslam həmrəyliyi – sülhə aparan yol" layihəsi çərçivəsində; Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəsətəyi ilə Şəki rayonu Aydınbulaq kənd "Hacı Mir Ələkbərağa" məscidi dini icması

davamı səh. 14



tərəfindən "İslam dini sülh, həmrəylik və vəhdət dinidir" layihəsi çərçivəsində; DQİDK-nın dəstəyi ilə Ağsu şəhər "Nuran Xatun" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi və millli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində;

**26 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə Qobustan rayonu Təklə Mirzəbaba kənd məscidi dini icması tərəfindən "İslamda birlik, bərabərlik" mövzusunda; Astara şəhəri "Qum" məscidi dini icmasının həyata keçirdiyi "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində; Sabirabad rayon Bulaqlı kənd şəhid Vüqar Əliyev adına tam orta məktəbində "Vətən sevgisi və vətənpərvərliyin

əvvəli səh. 13

tərənnümü" mövzusunda;

**27 sentyabr** - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə Ağdaş rayon Qəribli kənd məscidi dini icması tərəfindən "Tolerant və multikultural cəmiyyətdə birgə yaşayışın əsas şərtləri" mövzusunda; Cəlilabad rayonu Zərbiəlli kəndi "İmam Hüseyn" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi radikalizmə qarşı mübarizədə vasitə kimi" adlı layihə çərçivəsində "Dini dəyərlərimiz və vətənpərvərlik" mövzusunda;

**28 sentyabr** - Şəki rayonu Böyük Dəhnə kənd orta məktəbində Suçma kənd məscidi dini icmasının icra etdiyi "İslam dinində mövhumata və xurafata yer yoxdur" layihəsi çərçivəsində tədbir keçirilib

*Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, o cümlədən ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri məruzələrlə çıxış ediblər. Çıxışlarda dini maarifləndirmə sahəsində görülən tədbirlərin və bu istiqamətdə keçirilən mütəmadi görüşlərin əhəmiyyətinə toxunulub. Dövlətin dindarlara qayğısından və onların ibadəti üçün hər cür şəraitin yaradılmasından danışan məruzəçilər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar.*



*Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının əhəmiyyətindən danışıla tədbirlərdə bildirilib ki, İslam dini insanları sülhə, həmrəyliyə və humanizmə dəvət edir. Eyni zamanda, məruzəçilər dini radikalizmin fəsadları və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə iştirakçılara ətraflı məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.*

*Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb və onlara Dövlət Komitəsi tərəfindən nəşr olunan dini təyinatlı maarifləndirici ədəbiyyatlar hədiyyə edilib.*

# Bakının azad edilməsində Nuru paşanın xidmətləri

Bakı şəhərinin erməni-bolşevik işğalından qurtuluşundan artıq 99 il ötür. Bu zəfərin əldə edilməsində Nuru paşanın və onun rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun misilsiz xidmətləri olub. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra onun müstəqilliyini tanıyan ilk dövlət Osmanlı oldu və 1918-ci il iyunun 4-də Osmanlı ilə Batum sülh müqaviləsi imzalandı. Bu müqavilədə Azərbaycana hərbi yardımın göstərilməsi bəndi də öz əksini tapdı. Məhz iyun ayının əvvəllərində ölkəmizə göndərilən Qafqaz İslam Ordusuna rəhbərlik Nuru paşaya həvalə edildi.

O, Osmanlının hərbi naziri olan Ənvər paşanın qardaşı idi. Hərbçi ailəsində doğulmuş və 3-cü Ordu komandanlığında zabit kimi fəaliyyət göstərmişdir. Nuru paşa türk ordusundakı şərəfli xidmətlərinə görə "Altun ləyaqət", "Altun imtiyaz", "Dəmir xaç", "Tripoli qəhrəmanı" kimi orden və medallara layiq görülmüşdür. Nuru paşa Azərbaycana gələndə 29 yaşında idi və polkovnik-leytenant rütbəsinə yiyələnmişdi. Cəsur zabit kimi tanınırdı və döyüş təcrübəsi böyük idi.

Qafqazda yaşayan türk və İslam əhalisinin nümayəndələrindən ibarət Qafqaz İslam Ordusunu formalaşdırmaq üçün Nuru paşanın təşkil etdiyi nümayəndə heyətinin Azərbaycana göndərilməsi Ənvər paşa tərəfindən məsləhət görülmüşdü. 1918-ci il aprelin 5-də Qafqaz İslam Ordusunun Təlimatnaməsi təsdiq edildi. Təlimatnamə ordunun qarşısında duran vəzifələri müəyyən edirdi. Nuru paşanın zabit heyəti 1918-ci il may ayının sonlarında Araz çayını keçərək Zəngəzur bölgəsinə daxil oldu. Əhali Nuru paşanı böyük sevinc və rəğbət hissi ilə qarşıladı. O, qısa zamanda Azərbaycanın içərisinə doğru irəliləyərək Nuxaya yaxınlaşdı. Ordunun qərargahını burada yaratmağı planlaşdırırdı. Lakin Nuxa ətrafında ermənilərin fəallığı və şəhərin əsas nəqliyyat yollarından kənar olması səbəbindən qərargahı Gəncədə qurdu. Nuru paşa Azərbaycandakı real vəziyyəti ətraflı araşdırıqdan sonra Osmanlıdan əlavə kömək gəlmədən Bakıya hücumun heç bir nəticə verməyəcəyinə əmin oldu. O, Ənvər paşaya məlumat verərək Azərbaycandakı qüvvələrlə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin qeyri-mümkün olduğunu bildirdi. Ənvər paşanın hərbi yardım göndərməsindən sonra Nuru paşanın səréncamında iş görə biləcək nizamlı qüvvə formalaşdı. Lakin Nuru paşa yaxşı bilirdi ki, daşnak-bolşevik qüvvələri ilə müqayisədə Azərbaycana göndərilən hərbi qüvvə azlıq təşkil edir. Buna görə də qardaşı Ənvər paşaya göndərdiyi növbəti məktubunda nizamlı qüvvə və süvari qoşun təşkil etmək üçün zabit kadrlarına ehtiyacı olduğunu



yazmışdı. Nuru paşanın rəhbərlik etdiyi ordu ağır döyüş şəraitində sürətlə şərqə doğru – Bakıya tərəf hərəkət edir, amma bolşevik-daşnak qüvvələri onların hərəkətinə imkan vermirdi. Qaraməryəm ətrafında 7 saatadək davam edən döyüşlərdə uğursuzluğa düçar olan Nuru paşa Göyçaya daxil oldu və əhaliyə müraciət etdi: "Azərbaycanı və azərbaycanlıları düşməndən qurtarmaq üçün Osmanlı ordusu məmləkətinizə gəldi. Bu orduya canla-başla yardım etməyiniz lazımdır. Silahla yardım edilə bilmirsə, heç olmazsa, əsgərlərə ərzaq və su daşıyın. Bu dəhşətli istidə müharibə edən əsgər və zabitlərdən bir çoxu susuzluqdan ölmüşdür". Döyüşə uğursuzluqla başlayan Qafqaz İslam Ordusu sonradan təşəbbüsü ələ aldı və Bakı istiqamətində hərəkətə keçdi.

Qafqaz İslam Ordusunun Bakını azad etmək istəyi Almaniyanın Bakı ilə bağlı planlarına zidd olduğundan Ənvər paşa hücumla bağlı göstərişlərini Nuru paşaya gizli yolla ötürürdü. İyul ayında Şamaxının azad edilməsindən sonra əsas hədəfə - Bakıya doğru hərəkət başlandı. Nuru paşa şəhərə yaxınlaşdıqca Bakı komissarlarının ətrafına toplaşmış siyasi qüvvələr arasında parçalanma baş verirdi. Yaranmış çaxnaşmadan maksimum yararlanmaq istəyən Nuru paşa Mürsəl paşaya göndərdiyi teleqramda Bakı üzərinə qəti hücuma başlamağı məsləhət gördü. Döyüşlər əsnasında uğursuzluqlar yaşayan Qafqaz İslam Ordusunun döyüşçüləri arasında mənəvi-psixoloji vəziyyəti bərpa etmək üçün onlara belə bir müraciətnamə ünvanlanmışdı: "... Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr müsafirsiz qalacaq, sənin üçün tikilən paltarı düşmən geyinəcəkdir. Sənin ayağına kəsiləcək qurbanlar düşmənə qalacaqdır. Əgər sən bu şəhəri almasan, müsəlman gəlinlərin duvaqlarını kafirlər yırtacaq, mübarək İslam qanı qırmızı şərab kimi axacaqdır".

"Sentropkaspi diktaturası" və general Denstervilin rəhbərlik etdiyi ingilis qoşunları Bakını müdafiə etməkdə çətinlik çəkirdi. Hətta Sovet Rusiyasının şəhəri əldən verməmək üçün Almaniya ilə gizli saziş imzalamaq istəyi də nəticə vermədi. Nuru paşa Bakının azad edilməsi işini sürətləndirmək üçün polkovnik Süleyman İzzət bəyin rəhbərliyində olan 15-ci diviziyanı Qafqaz İslam Ordusunun tabeliyinə keçirdi. Avqustun 25-dən sentyabrın 13-dək davam edən döyüşlərdə Nuru paşa böyük zəfər qazandı və o, sentyabrın 14-də Bakıya hücumu başa çatdırmaq üçün 100 saylı əmr imzaladı. Sentyabrın 15-də ordu bütün istiqamətlərdən hücuma keçərək şəhəri işğaldan azad etdi. Ənvər paşa Bakının azad edilməsində göstərdiyi xidmətləri qiymətləndirərək Nuru paşaya göndərdiyi teleqramda yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin azad edilməsi xəbərini böyük sevinc və fərəh hissi ilə qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpür, şəhidlərimizə fatihələr ithaf edirəm".

Nuru paşanın göstərdiyi bu şücaətləri Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və Hacı Zeynalabdin Tağıyev yüksək qiymətləndirmiş, ona əllərindən gələn köməyi etmişlər.

**Abdulla Əfəndiyev**

# Qarabağ bölgəsində dini durum: qısa tarix və müasir vəziyyət (II YAZI)

Müstəqilliyimizin bərpasının ilk illərində Dağlıq Qarabağ və ona bitişik yeddi ətraf rayonun işğalı və bir milyondan artıq vətəndaşımızın qaçqın düşməsi çox ciddi sosial-siyasi gərginliklər yaratdı. Bu dövrdə bütün sahələrdə olduğu kimi, dini sahədə də pərakəndəlik səciyyəvi hal aldı. XX əsrin sonu XXI əsrin ilk illərində xeyriyyəçilik adı altında bəzi beynəlxalq və regional təşkilatlar Qarabağda mövcud olan ağır vəziyyətdən istifadə edərək, dini təbliğatla məşğul olmağa başladılar. Ölkədə humanitar yardım adı altında missionerlik fəaliyyətilə məşğul olan belə xarici təşkilatlar yardımlarla bərabər, mənsub olduqları dövlətin və ya dini cərəyanların ideyalarını Qarabağ və digər bölgələrə yaymağa çalışırdılar.

Beləliklə, qaçqınların ən çox məskunlaşdığı Bərdə, Tərtər və Ağdamın işğal olunmamış ərazilərindəki yaşayış məntəqələrində, Beyləqan və Ağcabədidə salınmış çadır düşərgələrində, Yevlax-Bəhramtəpə yolunun Bərdə ərazisindəki "Ərəb-1", "Ərəb-2" çadır şəhərciklərində tezliklə dini sahədə mənfi hallar müşahidə olunmağa başladı. Bu cür neqativ halların başlıca səbəbi din sahəsindəki milli kadr çatışmazlığı, əhalinin məlumatsızlığı, xüsusilə də gənclərin dini savadsızlığı, bölgədə "öz təlimlərini" yaymaqla məşğul olan təbliğatçı qrupların yaradılması və s. amillər daxildir. Qarabağdakı müharibə vəziyyətindən, siyasi hakimiyyətdəki çəkişmələrdən istifadə edən, xaricdən maliyyələşən ənənəvi olmayan, radikal İslam və qeyri-İslam yönümlü missioner təşkilatlar din pərdəsi altında öz maraqlarını təmin etmək üçün cəmiyyətdə təriqətçilik və dini ayrı-seçkilik yaratmağa çalışırdılar. Qarabağda çətin şəraitdə yaşayan soydaşlarımızın maddi durumu ağır olduğundan istər-istəməz onlara yardım edən bütün təşkilatlara ümid yeri kimi baxırdılar. Qarabağda əsasən köçkün əhaliyə yardım edən xarici təşkilatlar çadır qəsəbələri salınandan etibarən öz dini görüşlərini köçkünlərə, xüsusilə də onların azyaşlı övladlarına təbliğ etməyə başladılar. Bu təşkilatlar ətraflarına müəyyən qədər köçkünlərdən ibarət tərəfdarlar da toplamağa müvəffəq oldular.



Bəhs edilən dövrdə respublika ərazisində qeyri-ənənəvi, radikalizm və ekstremizmi yayan dini cərəyanlar təbliğatlarının daha da effektiv olması üçün zərərli dini ədəbiyyatlardan istifadə edir, sıralarına qatılmış insanların sosial problemlərini həll etməyə səy göstərirdilər.

Bu ağır vəziyyətdə ölkə rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyev bütün sahələri olduğu kimi, dini sahəni də dərhal nəzarətə götürdü. Ölkədə sabitliyi bərpa etmək və milli təhlükəsizliyi təmin etmək məqsədilə Ulu Öndər din sahəsində də bir çox təxirəsalınmaz tədbirlər gördü. Bu tədbirlərdən biri də 2001-ci ildə dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını təmin etmək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılması idi.



Təsadüfi deyil ki, Komitənin ilk regional şöbələrindən biri Qarabağ şöbəsi oldu. Şöbənin dislokasiyasına Şuşa, Laçın, Xankəndi, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Xocalı, İmişli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi və Zərdab rayonları daxil edildi. Dövlət Komitəsinin Qarabağ bölgəsi üzrə şöbəsi yarandığı ilk illərdən etibarən bölgədə yerli icra hakimiyyətləri və Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə birlikdə mövcud problemlərə qarşı effektiv mübarizə aparmağa başlamışdır.

Komitənin fəaliyyətinin əsas istiqamətlərdən biri "Dini etiqad azadlığı haqqında" Qanuna uyğun olaraq dini icmaların qeydiyyata alınması idi. 2009-cu ildə bu qanuna əlavə və dəyişikliklər edildikdən sonra Qarabağda olan 8 dini icma təkrar, bir neçəsi ilk dəfə dövlət qeydiyyatından keçdi. 2010-2017-ci illər ərzində 9 dini icma dövlət qeydiyyatına alındı. Bu dövrdə Ağcabədi rayonunda 14, Ağdamda 9, Bərdədə 16, Tərtərdə 7, Zərdabda 25, Beyləqanda 8, Füzulidə 7 və İmişli rayonunda 57 məscid var idi. Bunların bir hissəsi daimi, digərləri isə mövsümi fəaliyyət göstərirdi. Hazırda Ağcabədi bölgəsi üzrə 37 məsciddən 8-də dini icma mövcuddur.

2015-ci il 10 aprel tarixində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində aparılan islahatlar nəticəsində sədrin 52k saylı əmri ilə Qarabağ bölgəsi üzrə şöbə ləğv edilərək onun əsasında Ağcabədi bölgəsi üzrə şöbə fəaliyyətə başladı. Şöbənin dislokasiyasına Ağcabədi, Ağdam, Laçın, Füzuli və Tərtər rayonları daxil edildi. Digər 10 rayon isə müvəqqəti məskunlaşdıqları ərazilərdəki regional şöbələrin tərkibinə keçirildi, bəziləri isə rayonlarda yeni yaradılmış şöbələrin (İmişli şöbəsi, Yevlax şöbəsi və s.) tərkibinə daxil edildi. Dövlət Komitəsi rəhbərliyinin göstərişinə əsasən şöbənin maddi-texniki bazası və kadr potensialı yenidən təşkil olundu.

Dünyanın ən qədim insan məskənlərindən olan Qarabağ ecazkar təbiəti ilə yanaşı, zəngin mədəniyyətə də sahibdir. Müxtəlif dinlərin beşiyi olan bu ərazilər özündə həmin dinlərin elementlərini daşıyır. Hər bir dinin əsas atributlarından biri də onun ibadət yerləridir. Qarabağda olan müxtəlif dinlərə məxsus ibadət yerləri və ziyarətgahlar bu ərazilərdə bir neçə dinin eyni vaxtda yaşadığını göstərir. Bu isə bölgədə məskunlaşan müxtəlif xalqların tolerant həyat tərzinə dəlalət edir.

Ölkədə dini dözümlülüyü və ictimai sabitliyi gücləndirmək, dövlətçilik ənənələrimizi daha da zənginləşdirmək dövlət siyasətinin prioritet istiqamətidir. Bu siyasətin əsasında isə əhalinin maariflənməsi durur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı da bu məqsədi daşıyır. Sərəncama əsasən ölkənin digər regionları kimi, Qarabağ bölgəsində də keçirilən dini maarifləndirmə tədbirlərinin təşkili üçün dini icmalara vəsait ayrılıb. Son iki ildə bölgədə dini icmalar tərəfindən müxtəlif mövzularda 72 adda tədbir təşkil olunub.

Bununla yanaşı, Dövlət Komitəsinin nəşrlərinin dindarlar arasında paylanması da əhalinin dini maariflənmə işlərinə müsbət təsir edir. "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, eləcədə digər nəşrlərin bölgədə paylanması, o cümlədən son illər bölgənin şəhər və rayon Cümə məscidlərində kitabxanaların yaradılması əhalinin maariflənməsi istiqamətində öz müsbət təsirini göstərir.

Dövlət Komitəsinin sədri və onun müavinlərinin, şöbə müdirlərinin bölgəyə müntəzəm olaraq səfər etmələri bölgədə dini sabitliyin hökm sürməsinə və dövlət-din münasibətlərinin tənzimlənməsinə müsbət təsir göstərib. Ölkə Prezidentinin göstərişinə əsasən Komitə sədri Mübariz Qurbanlının Qarabağ bölgəsinə etdiyi səfərlər və bölgə əhalisi ilə keçirtdiyi görüşlər dini sahədə olan problemlərin aradan qaldırılmasına olduqca müsbət təsir edib.

Qarabağ bölgəsindəki dini durumdan bəhs edərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Cocuq Mərcanlı məscidinin tikilməsi dini-tarixi hadisə kimi xüsusi qeyd edilməlidir. Ölkə Prezidentinin tapşırığına əsasən məscid Şuşa məscidinin bənzəri kimi tikilib. Məscidin bu formada tikilməsi işğalçı Ermənistana və beynəlxalq aləmə Şuşadakı məscidin bərpa ediləcəyi mesajıdır. Bununla da Azərbaycan İslam dünyasının bir parçası olduğunu və öz tarixi keçmişinə sadiqliyini nümayiş etdirdi.

Mədəniyyət incisi olan qoşa minarəli bu məscidin uzunluğu 26 m, eni 21m, hündürlüyü 9,5 m, ümumi sahəsi isə 610 kvadratmetrdir. Məsciddə eyni vaxtda 250 nəfər namaz qıla bilir. Qoşa minarələrin hündürlüyü 26 metrdir, günbəz metal konstruksiyadandır, namaz otaqları arakəsmə taxta şəbəkə ilə bir-birindən ayrılır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin 07.06.2017-ci il tarixli əmri ilə artıq məscidə axund təyin edilib və ibadət evində dini icmanın yaradılması prosesinə başlanılıb.

BÖYÜK QAYIDIŞın ilk mərhələsinin tərkib hissəsi olan bu işlər Prezident cənab İlham Əliyevin milli-mənəvi və bəşəri dəyərlərə olan qayğısının bariz nümunəsidir. Dövlət başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ibadətgahların tikilməsində və qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir.

**Əlizadə Nəcəfov**
DQİDK-nın Ağcabədi bölgəsi üzrə
şöbəsinin müdiri,
tarix üzrə fəlsəfə doktoru

## Elan

*Lənkəran rayonu Türkəncil kənd dini icması (10 yanvar 2005-ci il tarixli, 305 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 26 sentyabr 2017-cı il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.*

# CƏMİYYƏT və DİN

№ 9 (314) / SENTYABR 2017-ci il


## Avstriyada üzünü örtən şəxslər cəzalandırılacaq



Avstriyada bu il oktyabrın 1-dən etibarən qüvvəyə minəcək yeni qanuna əsasən ictimai yerlərdə üzünü müxtəlif vasitələrlə örtən şəxslərə qarşı 150 avro məbləğində cərimə tətbiq olunacaq.

Yeni qanunun din ilə heç bir bağlılığı olmasa da, bu qaydanın, ilk növbədə, müsəlman qadınlara qarşı yönəlməsi ehtimalı etirazla qarşılanıb.

İnsan haqları təşkilatları ilə yanaşı, müsəlman qurumları da yeni qanunu tənqid ediblər. Bununla belə, Avstriya Daxili İşlər Nazirliyindən bildirilib ki, yeni qanun yalnız üzünü örtən və polisin tələbi əsasında sifət cizgilərini göstərməkdən imtina edən şəxslərə şamil olunur. Niqab, burka və digər ənənəvi Şərq-İslam geyimləri ilə yanaşı, adi qrip maskalarını heç bir tibbi göstəriş və xəstəlik olmadan istifadə edən şəxslər də polis tərəfindən saxlanıla bilərlər. Sifətin tam görünməsini təmin edən baş örtükləri isə heç bir məhdudlaşdırılma olmadan istifadə edilə bilər.

Vyana Turizm Cəmiyyəti isə yeni qanunu iqtisadi baxımdan səmərəsiz hesab edir. Qurumdan bildirilir ki, hər il turist gecələmələrinin Vyanada 350 mini, Zaltsburq əyalətində isə 660 mini Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt, Qətər, Livan və İordaniyadan olan turistlərin payına düşür. Bu ölkələrdən olan turistlərin əsas etibarilə yuxarı kateqoriyalı otellərdə qaldığını və turizm gəlirlərinin yüksək olmasında xüsusi çəkisini nəzərə alaraq, yeni qanunun gələcəkdə adıçəkilən ölkələrdən gələn ziyarətçilərin sayına təsir göstərəcəyini ehtimal etmək olar.

## Misir piramidalarının sirri tapıldı



Misir piramidaları ilə bağlı çoxsaylı suallardan birinə cavab tapılıb.

Piramidaları inşa etmək üçün 170 min tonluq qayalar süni kanal vasitəsilə gətirilib. Qayaları insanın açdığı süni kanallarla qayıq vasitəsilə daşıyıblar.

Bu günə qədər alimlər piramidaları inşa etmək üçün qayaların necə gətirilməsi ilə bağlı müxtəlif versiyalar səsləndiriblər. Məlum olub ki, 170 min qaya Nil çayında salınan süni kanal vasitəsilə daşınıb. Bu barədə məlumat qədim dövrə aid gündəliklər vasitəsilə ortaya çıxıb.

3 min il əvvələ aid gündəliyə əsasən 2.5 tonluq kirəc daşı və qranit bloklar Nil Çayı vasitəsilə taxta qayıqlarla piramidanın (söhbət məşhur Xeops ehramından gedir) inşa edildiyi əraziyə daşınıb. Qayıqlar iplə bir-birinə bağlanıb. Qədim Misirin mühəndisləri isə Nilin sahilindəki bir limandan piramidanın inşa edildiyi Gizzaya kanal açıblar.

Nəhəng daş bloklar bu kanal vasitəsilə 800 km-lik məsafədən əraziyə daşınıb. Bu iş üçün minlərlə insan cəlb edilib. Ümumilikdə 170 min ton daş əraziyə daşınıb. Arxeoloq Mark Lehner isə sözügedən kanalın layihəsini də tapdıqlarını qeyd edib.

## Səudiyyədə qadınlar da maşın sürəcək



Səudiyyə Ərəbistanının kralı Salman bin Əbdül Əziz Əl Saud qadınlara avtomobil idarə etməyə icazə verən fərman imzalayıb. Bu barədə Səudiyyə Ərəbistanı XİN-nin məlumatında bildirilir.

“Kralın fərmanı Yol Hərəkəti Xidməti krallıq ərazisində qadınlara avtomobil idarə etməyə icazə verir”, - deyə məlumatda bildirilir.

Kral qadınlara avtomobil idarə etmək hüququnun verilməsi ilə əlaqədar lazımi tədbirlərin görülməsi üçün DİN, Maliyyə, Əmək və Sosial Təminat nazirliklərinin nümayəndələrindən ibarət komissiyanın yaradılmasına dair göstəriş verib.

### Yadigar söz

Əbu Turxan

**İdrak və inamın hər biri öz yerində gözəldir. Başqasının sahəsinə keçdikdə isə mürtəceləşirlər.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Oktyabr - 2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:16 | 06:36 | 12:30 | 16:38 | 18:38 | 19:38 |
| 2 | 05:17 | 06:37 | 12:30 | 16:37 | 18:36 | 19:37 |
| 3 | 05:18 | 06:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 05:19 | 06:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 05:20 | 06:40 | 12:29 | 16:32 | 18:31 | 19:32 |
| 6 | 05:21 | 06:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 05:22 | 06:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 05:23 | 06:43 | 12:28 | 16:28 | 18:26 | 19:27 |
| 9 | 05:25 | 06:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 05:26 | 06:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 05:27 | 06:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 05:28 | 06:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 05:29 | 06:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 05:30 | 06:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 05:31 | 06:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 05:32 | 06:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 05:33 | 06:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 05:34 | 06:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 05:35 | 06:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 05:36 | 06:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 05:37 | 06:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 05:38 | 06:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 05:39 | 06:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 05:40 | 07:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 05:41 | 07:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 05:42 | 07:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 05:43 | 07:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 05:44 | 07:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 05:45 | 07:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 05:46 | 07:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 05:47 | 07:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## «Marsda həyatın simulyasiyası» adlı səkkiz aylıq sınaq başa çatıb

ABŞ-ın Havay ştatında hündürlüyü 2500 metr olan Mauna Loa dağında 6 elm adamının “Marsda həyatın simulyasiyası” adlı 8 aylıq təcrübə müddəti başa çatıb.

Dünyanın ən böyük vulkanik dağının zirvəsi ətrafında 4 kişi və 2 qadın alim yanvardan etibarən davam edən 5-ci eksperimentdə uzunmüddətli kosmik missiyaların kosmonavtlara psixoloji təsirlərini araşdırıblar. Təcrübədə iştirak edən tədqiqatçılar dondurulmuş və qurudulmuş ərzaqlarla qidalanıblar. Onlar 8 aylıq eksperiment zamanı əldə edilmiş nəticələrin gələcəkdə kosmik tədqiqatlarda kömək edə biləcəyini söyləyiblər.

ABŞ-ın Kosmik və Aviasiya İdarəsi (NASA) tərəfindən maliyyələşdirilən eksperimentdə iştirak edən alimlərdən biri tərəvəzlər yetişdirməyə də müvəffəq olub.

Bundan əvvəl 2016-cı ilin avqustunda Mauna Loa dağında altı alim bir il “Marsda həyatın simulyasiyası” eksperimentinə qatılıb.

Ötən ilki təcrübə daha əvvəl Rusiyada həyata keçirilən və 520 gün davam edən eksperimentdən sonra ikinci ən uzunmüddətli sınaq hesab olunur.

## GƏLƏN İL AZƏRBAYCANIN İKİNCİ TELEKOMMUNİKASİYA PEYKİ ORBİTƏ ÇIXARILACAQ

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə "Impact" jurnalına müsahibəsində bildirib ki, Azerspace-2" 2018-ci ildə orbitə çıxarılması ilə bağlı işlər plan üzrə gedir.

Onun sözlərinə görə, bu peyk regionda şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbatı qarşılayaraq yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək: "Yeni peyk həm də birinci telekommunikasiya peykinin ("Azerspace-1") orbitdəki ehtiyatı olacaq. "Azerspace-1"-in özü də uğurla fəaliyyət göstərir və dünyanın 22 ölkəsində müştəri bazası var. Peykin tutumunun 75 faizi artıq kommersiyalaşdırılıb", - deyə nazir vurğulayıb.

Nazir qeyd edib ki, kosmik sənayemizin vacib resurslarından biri də Yerin müşahidə peyki olan "Azersky"dır: "Hazırda "Azersky" peyki müdafiə, təhlükəsizlik, fövqəladə hallar, təbii ehtiyatların tədqiqi, dənizçilik, ətraf mühitin mühafizəsi, şəhərsalma, xəritəçəkmə, kənd təsərrüfatı, turizm və s. kimi sahələrdə geniş şəkildə tətbiq olunur. Sevindirici haldır ki, peyklərimiz tam olaraq yerli mütəxəssislər tərəfindən idarə olunur".


Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 365

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894